

NƏ QƏDƏR Kİ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ VAR, AZƏRBAYCAN XALQI VAR, HEYDƏR ƏLİYEV ÜRƏKLƏRDƏ YAŞAYACAQDIR!


VAHİD AZƏRBAYCAN UĞRUNDA!

# iki sahil

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET     № 34 (7289) / Çərşənbə, 20 fevral 2019-cu il


# Prezident növbəti dəfə on minlərlə ailəni sevindirdi



⇨ Bax: səh. 6

## Azərbaycan-Türkiyə: dostluq və qardaşlıq münasibətləri bütün sahələrdə uğurla inkişaf edir



⇨ Bax: səh. 2

## "SOCAR POLYMER": 300 min ton istehsal qeyri-neft ixracının artımı deməkdir

⇨ Bax: səh. 4




## Siyavuş Novruzov: Görülən işləri kiminsə öz adına çıxması yolverilməzdir

⇨ Bax: səh. 5



## Əli Əhmədov: Azərbaycan-Türkiyə qardaşlıq əlaqələrinin qarşısını almaq mümkün olmayacaq

⇨ Bax: səh. 5





## Əli Kərimlinin əbədi müxalifət titulu itirmək və xarici qrantlardan məhrum olmaq qorxusu



⇨ Bax: səh. 11

## Öz dilimdir şirin dil...

⇨ Bax: səh. 13




## İctimai qınaq və hüquqi caza

⇨ Bax: səh. 14




6 Prezident növbəti dəfə on minlərlə ailəni sevindirdi

7 BANM-də "PMI Azerbaijan 2019" sammiti

9 Azərbaycan və çeçen xalqlarının dostluq və qardaşlığını kimsə poza bilməz

# Azərbaycan-Türkiyə: dostluq və qardaşlıq münasibətləri bütün sahələrdə uğurla inkişaf edir

## Prezident İlham Əliyev Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbərinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Türkiyə Böyük Millət Məclisinin deputatı, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun böyük tərkibdə Azərbaycana səfərinin əlaqələrimizin daha da genişləndirilməsi işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi. Azərbaycan ilə Türkiyənin bu gün dünyada bir-birinə ən yaxın ölkələr olduğunu deyən Prezident İlham Əliyev dövlət başçıları səviyyəsində keçirilən görüşlərin və müxtəlif səviyyəli qarşılıqlı səfərlərin dostluğumuzun daha da möhkəmlənməsi və iş birliyi üçün yeni sahələrin müəyyən edilməsi baxımından önəmli olduğunu dedi. Keçən il Rəcəb Tayyib Ərdoğanla həm Türkiyədə, həm Azərbaycanda və eyni zamanda, beynəlxalq tədbirlər çərçivəsində görüşlərini məmnunluqla xatırlayan dövlətimizin başçısı Türkiyə Prezidentinin iştirakı ilə Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş hərbi paradda Azərbaycan və Türkiyə əsgərlərinin təntənəli keçidini dostluq və qardaşlıq bayramı kimi dəyərləndirdi. Prezident İlham Əliyev ötən ilin ölkələrimiz üçün eyni zamanda önəmli enerji layihələri olan TANAP-ın və "STAR" neft emalı zavodunun açılışı ilə də yadda qaldığını dedi.

Türkiyə Böyük Millət Məclisinin deputatı, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım nümayəndə heyətini qəbul etdiyinə görə dövlətimizin başçısına minnətdarlığını bildirərək, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını Prezident İlham Əliyevə çatdırdı. O, Türkiyə-Azərbaycan əlaqələrinin bu gün ən yüksək səviyyədə olduğunu qeyd edərək, xalqımızın ümummilli lideri Heydər Əliyevlə görüşlərini böyük ehtiramla xatırladı. Türkiyəli qonaq qeyd etdi ki, ümummilli lider Heydər Əliyevin siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə bu gün Azərbaycan beynəlxalq aləmdə böyük nüfuz qazanıb və sürətli inkişafa nail olub. O, rəhbərlik etdiyi Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələrinin bundan sonra daha da möhkəmləndirilməsi işində səylərini əsirgəməyəcəyini vurğuladı.

Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.

Sonda xatirə şəkli çəkdirildi.

### Fərid Şəfiyev Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri təyin edilib



Prezident İlham Əliyev Fərid Rauf oğlu Şəfiyevin Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri təyin edilməsi haqqında Sərəncam imzalayıb.

Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

Digər bir sərəncamla Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi dünyada və regionda baş verən prosesləri təhlil edən, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin müxtəlif aspektləri, beynəlxalq münasibətlər və təhlükəsizlik məsələləri ilə bağlı fundamental araşdırmalar aparan, bu məsələlərə dair ölkəmizin mövqeyinin beynəlxalq ictimai, siyasi və akademik dairələrə çatdırılmasında iştirak edən, Azərbaycanın dövlət orqanlarını elmi-təhlili materiallarla təmin edən publik hüquqi şəxs kimi müəyyən olunub. Mərkəzə ümumi rəhbərliyi və nəzarəti üç üzvdən ibarət İdarə Heyəti həyata keçirir.

Qeyd edək ki, Fərid Şəfiyev Azərbaycan Respublikasının Çex Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılıb.

### Düşmən atəşkəsi pozmaqda davam edir

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.

Ermənistanın İcevan rayonunun Paravakar kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Bala Cəfərli kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Baş Qərvənd, Yusifcanlı, Füzuli rayonunun Qaraxanbəyli, Qorqan kəndləri yaxınlığında, həmçinin Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

## Ölkəmiz Şimal-Cənub, Şərq-Qərb, Şimal-Qərb istiqamətləri üzrə nəqliyyat daşımalarında mühüm rol oynayacaq



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Avropa Komissiyasının Hərəkətlilik və Nəqliyyat üzrə (MOVE) Baş Direktorluğunun rəhbəri Henrik Hololeyi qəbul edib.**

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, Henrik Hololey dövlətimizin başçısını ötən prezident seçkilərində qələbəsi münasibətilə təbrik etdi, bunu xalqın ölkədə sabitliyə və inkişafa göstərdiyi etimad kimi dəyərləndirdi. Avropa Komissiyasının Hərəkətlilik və Nəqliyyat üzrə Baş Direktorluğunun rəhbəri Henrik Hololey bu səfəri zamanı Azərbaycanın bölgələrində olduğunu və gördüyü inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını qeyd etdi, ölkəmizin turizm və digər sahələrdə böyük potensiala malik olduğunu vurğuladı. Qonaq, eyni zamanda, Bakıda səmərəli görüşlər keçirdiklərini bildirərək, Heydər Əliyev beynəlxalq aeroportunun və Azərbaycanda mülki aviasiya sisteminin texniki təchizatının yüksək səviyyədə olduğunu qeyd etdi.

Prezident İlham Əliyev Azərbaycanda infrastrukturun yaradılması istiqamətində çox böyük layihələrin reallaşdığını vurğulayaraq, altı beynəlxalq hava limanının, beynəlxalq standartlara cavab verən avtomagistral yollarının, Ələtdə Bakı Beynəlxalq Dəniz Ticarət Limanının inşası və digər işlərin həyata keçirilməsi nəticəsində ölkəmizin mühüm beynəlxalq nəqliyyat qovşağına çevrildiyini bildirdi. Dövlətimizin başçısı Azərbaycanın Şimal-Cənub, Şərq-Qərb, Şimal-Qərb istiqamətlərində nəqliyyat daşımaları sahəsində mühüm rol oynayacağını qeyd edərək, perspektivlər nəzərə alınmaqla bu sahədə artıq konkret işlərin görüldüyünü dedi.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlərin uğurla inkişaf etdiyi vurğulandı, ölkəmizdə müasir nəqliyyat infrastrukturunun yaradılmasının önəmi qeyd olundu, nəqliyyat sahəsində əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında Fərman imzalanıb



Prezident İlham Əliyev bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında Fərman imzalayıb.

Azərbaycanda əhalinin yaşayış səviyyəsinin və sosial rifahının yüksəldilməsi dövlət siyasətinin başlıca prioritetlərindən biridir. Ölkənin sosial-iqtisadi inkişafı konsepsiyasına uyğun olaraq vətəndaşların mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına hədəflənən məqsədyönlü və sistemli tədbirlər həyata keçirilir. Son illərdə Azərbaycan iqtisadiyyatının bütün sahələrində, o cümlədən inşaat sektorunda əhəmiyyətli inkişaf müşahidə olunur, şəhərsalma və tikinti sahələrində irihəcmli investisiyaların böyük hissəsi çoxmənzilli yaşayış binalarının tikintisinə yönəldilir.

Bununla belə, ötən müddət ərzində bəzi çoxmənzilli yaşayış binalarında tikinti işləri şəhərsalma qanunvericiliyinin tələblərinə riayət olunmadan və ya sənədləşdirilməsində ciddi qüsurlar buraxılaraq, sakinlərinin hüquq və maraqları nəzərə alınmadan aparılıb ki, bu da, öz növbəsində, bir sıra hallarda həmin binaların rəsmiləşdirilməsini qeyri-mümkün edib.

İstismarına icazə verilməmiş çoxmənzilli yaşayış binalarının sakinlərinin mənafelərini və Azərbaycanın sosialyönümlü dövlət siyasətinin əsasını təşkil edən humanizm prinsiplərini əsas götürərək, həmin binaların istismarına icazə prosedurunu və müddətini optimallaşdırmaq, bu sahədə şəffaflığı və vətəndaş məmnunluğunu təmin etmək məqsədilə müəyyən edilir ki, 2019-cu il yanvarın 1-dək bütün mərtəbələrinin, yan divarlarının və dam örtüyünün inşası daxil olmaqla tikinti-quraşdırma işləri başa çatmış və istismar edilən mənzilləri olan çoxmənzilli yaşayış binalarının (çoxmənzilli yaşayış binası komplekslərinin) istismarına icazə verilməsi aşağıdakı qaydada həyata keçirilir:

- Fövqəladə Hallar Nazirliyi 2 ay müddətində 2019-cu il yanvarın 1-dək bütün mərtəbələrinin, yan divarlarının və dam örtüyünün inşası daxil olmaqla tikinti-quraşdırma işləri başa çatmış və istismar edilən mənzilləri olan çoxmənzilli yaşayış binalarını (çoxmənzilli yaşayış binası komplekslərini) tikinti obyektinin yükdaşıyan konstruksiyalarının dayanıqlılıq, möhkəmlik baxımından istismara yararlılığı, yanğın təhlükəsizliyi tələblərinə cavab verməsi, liftlərin və mühəndis-kommunikasiya təminatı sistemlərinin istismara hazırlığı baxımından müayinə edir, müayinənin nəticələri müsbət olduğu halda çoxmənzilli yaşayış binasının (çoxmənzilli yaşayış binası kompleksinin) istismara hazır olması barədə rəy tərtib edib, binanın əsas texniki göstəricilərinin və tərkib hissələrinin istismar təyinatının faktiki vəziyyətini, habelə döngə nöqtələrinin koordinatlarını əks etdirən layihəsinin elektron surəti ilə birlikdə aidiyyəti üzrə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə və ya yerli icra hakimiyyəti orqanına təqdim edir;

- Dövlət Şəhərsalma və Arxitektura Komitəsi və ya aidiyyəti yerli icra hakimiyyəti orqanı 7 gün müddətində bu fərmanın 1.1-ci bəndinə uyğun olaraq aparılmış müayinənin nəticələrinə əsasən istismara hazırlığı barədə müsbət rəy verilmiş çoxmənzilli yaşayış binasının (çoxmənzilli yaşayış binası kompleksinin) istismarına icazə verir və bu barədə Tikintilərin Dövlət Reyestrinə və Fövqəladə Hallar Nazirliyinə yazılı məlumat göndərir.

Bu fərmanın 1.1-ci bəndinə əsasən aparılmış müayinənin nəticələri mənfi olduqda, Fövqəladə Hallar Nazirliyi müayinə nəticəsində aşkarlanmış çatışmazlıqları və onların aradan qaldırılması üçün görülməli olan tədbirləri özündə əks etdirən rəyini bu fərmanın 1.1-ci bəndində göstərilən müddətdə tərtib edib çoxmənzilli yaşayış binasının (çoxmənzilli yaşayış binası kompleksinin) sifarişçisinə (sahibinə) və ya idarəedici təşkilatına, onlar olmadığı halda aidiyyəti yerli icra hakimiyyəti orqanına təqdim edir. Müvafiq rəydə göstərilmiş çatışmazlıqlar 5 ay müddətində aradan qaldırıldıqda, bu fərmanın 1.1-ci bəndində nəzərdə tutulan müayinənin yenidən aparılması üçün Fövqəladə Hallar Nazirliyinə müraciət oluna bilər.

Nazirlər Kabinetinə tapşırılır ki, bu fərmanın 1-ci hissəsinə uyğun olaraq aparılmış müayinənin nəticələrinə əsasən istismara hazırlığı barədə müsbət rəy verilmiş çoxmənzilli yaşayış binasının (çoxmənzilli yaşayış binası kompleksinin) istismarına icazənin formasını Azərbaycan Prezidenti ilə razılaşdırmaqla 15 gün müddətində müəyyən etsin; bu fərmanın 5.3-cü bəndində verilmiş tapşırığın icrasını nəzarətdə saxlasın və Əmlak Məsələləri Dövlət Komitəsinin qaldırdığı vəsatətlərə əsasən, istismarına icazə verilmiş çoxmənzilli yaşayış binalarının (çoxmənzilli yaşayış binası komplekslərinə münasibətdə isə kompleksdə istismarına icazə verilmiş binaların) tikinti ərazilərinin kateqoriyasının dəyişdirilməsi ilə bağlı zəruri tədbirlər görsün; bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsi və aidiyyəti yerli icra hakimiyyəti orqanları bu fərmanın 1-ci hissəsinə uyğun olaraq, istismara icazə verildiyi gündən 3 gün müddətində həmin icazənin və bu fərmanın 1.1-ci bəndində göstərilən layihənin elektron surətinin Əmlak Məsələləri Dövlət Komitəsinə və bu fərmanın 7-ci hissəsində nəzərdə tutulan qurumlara göndərilməsini; istismarına icazə verilmiş çoxmənzilli yaşayış binalarının (çoxmənzilli yaşayış binası komplekslərinin) siyahısının öz rəsmi internet səhifələrində yerləşdirilməsini və icazə verildiyi gündən 3 gün müddətində bu barədə məlumatı siyahıya daxil edərək onun mütəmadi yenilənməsini; Fövqəladə Hallar Nazirliyinin sorğusu əsasında çoxmənzilli yaşayış binalarının (çoxmənzilli yaşayış binası komplekslərinin) müayinəsi ilə bağlı mövcud tikinti sənədlərinin surətlərinin, habelə digər zəruri məlumatların 3 gün müddətində təqdim olunmasını təmin edəcəklər.

Əmlak Məsələləri Dövlət Komitəsi bu fərmanın 1-ci hissəsinə uyğun olaraq, çoxmənzilli yaşayış binalarının (çoxmənzilli yaşayış binası komplekslərinin) müayinəsi zamanı onların döngə nöqtələrinin koordinatlarının müəyyən edilməsində Fövqəladə Hallar Nazirliyinə zəruri kömək göstərəcək; istismarına icazə verilmiş çoxmənzilli yaşayış binalarının (çoxmənzilli yaşayış binası komplekslərinin) tərkib hissələri üzərində mülkiyyət hüquqlarının dövlət qeydiyyatına alınmasını hüquq sahibinin müraciəti əsasında qanunla müəyyən olunmuş müddətdə təmin edəcək; istismarına icazə verildiyi barədə məlumat daxil olduğu gündən 10 gün müddətində, bina (kompleks) bu məqsəd üçün nəzərdə tutulmayan torpaq sahəsində inşa olunduğu hallarda çoxmənzilli yaşayış binalarının (çoxmənzilli yaşayış binası komplekslərinə münasibətdə isə kompleksdə istismarına icazə verilmiş binaların) tikinti ərazilərinin kateqoriyasının dəyişdirilməsi barədə Nazirlər Kabineti qarşısında vəsatət qaldırılmasını təmin edəcək.

Yerli icra hakimiyyəti orqanlarına bu fərmanın 2-ci hissəsində nəzərdə tutulan rəy onlara təqdim edildiyi hallarda həmin rəydə göstərilən çatışmazlıqların aradan qaldırılmasında çoxmənzilli yaşayış binasının (çoxmənzilli yaşayış binası kompleksinin) sakinlərinə təşkilati baxımdan kömək göstərmək tapşırılıb.

"Azərsu" Açıq Səhmdar Cəmiyyəti, "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Azəriqaz" İstehsalat Birliyi bu fərmanın 1-ci hissəsinə uyğun olaraq, çoxmənzilli yaşayış binalarının (çoxmənzilli yaşayış binası komplekslərinin) müayinəsi zamanı mühəndis-kommunikasiya təminatı sistemlərinin istismara hazırlıq baxımından aktlaşdırılmasını təmin etməklə Fövqəladə Hallar Nazirliyinə zəruri kömək göstərəcək; istismarına icazə verildiyi gündən 1 ay müddətində çoxmənzilli yaşayış binalarının (çoxmənzilli yaşayış binası komplekslərinin) su, kanalizasiya sistemi, işıq və qazla təchiz edilməsini təmin edəcəklər.

Fövqəladə Hallar Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Əmlak Məsələləri Dövlət Komitəsi, yerli icra hakimiyyəti orqanları, "Azərsu" Açıq Səhmdar Cəmiyyəti, "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Azəriqaz" İstehsalat Birliyi bu fərmanın icrası ilə bağlı görülmüş tədbirlər və işlərin gedişatı barədə hər ay Azərbaycan Prezidentinə məlumat verəcəklər.

Bu fərman 2020-ci il yanvarın 1-dək qüvvədədir.

## ATƏT sədri Azərbaycana səfər edəcək

ATƏT-in fəaliyyətdə olan sədri, Slovakiyanın xarici işlər naziri Miroslav Layçak Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı müzakirələr aparmaq üçün Azərbaycana və Ermənistana səfər edəcək.

Bunu M.Layçak Rusiyanın xarici işlər naziri Sergey Lavrovla birgə mətbuat konfransında deyib. O qeyd edib: "Məhz bu məsələlərin müzakirəsi üçün martın birinci yarısında Bakıya və Yerevana səfər etməyə hazırlaşıram. Azərbaycandan və Ermənistandan dəvətim var".

M.Layçak bildirib ki, Slovakiya Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üçün mövcud çərçivələri dəstəkləyir: "Biz ATƏT-in Minsk qrupunun həmsədrlərini tam dəstəkləyirik. Mən onlarla mütəmadi görüşürəm".

ATƏT sədrinin sözlərinə görə, Ermənistandakı seçkilərdən sonra yeni vəziyyət yaranıb: "Gözləntilər bununla bağlıdır. İstərdim, mənim səfərim müəyyən etməyə kömək etsin ki, bu mənada nəyi gözləmək olar və hansı nəticələr əldə edilə bilər. Bizim məqsədimiz Minsk qrupunun həmsədrlərinə bu yeni vəziyyətdən istifadə etmək üçün kömək etməkdir".

## *İcraçı direktor:* TAP layihəsinin 85 faizdən çoxu icra edilib

Trans Adriatic Pipeline

Energetika naziri Pərviz Şahbazov Cənub Qaz Dəhlizi Məşvərət Şurasının beşinci iclası çərçivəsində Bakıda səfərdə olan TAP-ın icraçı direktoru Luca Schieppati və prezidenti Valter Peeraerlə görüşüb.

Görüşdə TAP-ın Albaniya, Yunanıstan və İtaliya hissəsində görülən işlər barədə ətraflı məlumat verilib.

L.Schieppati deyib ki, Azərbaycan təbii qazını Avropaya nəql edəcək TAP qaz boru kəməri layihəsi üzrə işlərin 85 faizdən çoxu icra olunub. İtaliyada hazırda boru kəmərinin qəbulu terminalı, mikrotunel sahəsi və dənizə çıxış hissəsində işlər davam etdirilir. Onun sözlərinə görə, TAP 2020-ci ildə Azərbaycanı qazını qəbul etməyə hazır olacaq.

Nazir P.Şahbazov TAP layihəsi üzrə irəliləyişləri və İtaliya hökumətinin mövqeyini yüksək qiymətləndirib. Layihənin region ölkələri, o cümlədən İtaliya üçün bir çox aspektlərdən mühüm əhəmiyyət daşıdığını və TAP-ın tikintisinin planlaşdırılan vaxtda yekunlaşacağına əminliyini ifadə edib.

## 167,1 min ton dizel yanacağı istehsal olunub



Ötən ay Azərbaycanda 167,1 min ton dizel yanacağı, 105,7 min ton avtomobil benzini, 25,7 min ton neft-kimya sənayesində istifadə üçün benzin, 49 min ton ağ neft, 5,3 min ton yanacaq mazutu, 1,9 min ton sürtkü yağları, 5,8 min ton neft bitumu və 21,1 min ton neft koksu istehsal edilib.

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, ay ərzində neft məhsullarının istehsalı sahəsində istehsalın ümumi dəyəri 216,8 milyon manat olmaqla əvvəlki ilin yanvar ayı ilə müqayisədə 5,6 faiz azalıb.

Neft məhsullarından avtomobil benzininin istehsalı 3,1 faiz, dizel yanacağının istehsalı 0,4 faiz azalıb, yanacaq mazutu, ağ neft və sürtkü yağlarının istehsalı isə artıb.

## "Azeri Light"ın bir barreli 68,65 dollara satılır

Azərbaycan neftinin qiyməti bahalaşır. "Azeri Light" markalı neftin bir barrelinin qiyməti 0,59 dollar artaraq 68,65 dollar təşkil edib.

Qeyd edək ki, Azərbaycan neftinin bir barrelinin qiyməti 2001-ci ilin dekabrında minimuma enərək 19,15 dollar, 2008-ci ilin iyulunda isə maksimuma yüksələrək 149,66 dollar olub.

## “SOCAR POLYMER”:

# 300 min ton istehsal qeyri-neft ixracının artımı deməkdir



**Sumqayıt Kimya Sənaye Parkında yerləşən, beynəlxalq statusu olan, miqyası baxımından son 40 il ərzində Azərbaycanın neft-kimya sənayesində həyata keçirilən ilk layihə olan “SOCAR Polymer” şirkəti Azərbaycanda kimya sənayesinin inkişafını sürətləndirmək məqsədilə 2013-cü ildə təsis edilib. 2015-ci il oktyabrın 25-də isə Prezident İlham Əliyevin iştirakı ilə ən yüksək standartlara və müasir texnologiyalara əsaslanan “SOCAR Polymer” zavodlarının təməli qoyulub. Şirkətin istehsalat obyektləri polipropilen (PP) və yüksək sıxlıqlı polietilen (YSPE) istehsal edəcək qurğulardan ibarətdir. Həmin qurğular müvafiq olaraq 180000 və 120000 ton illik istehsal gücünə malik olan həmin PP və YSPE qurğularıdır.**

Qeyd edək ki, kimya sənayesi Azərbaycanda 4-cü böyük istehsal sektorudur. Azərbaycanın istehsal sektorunun 6,2%-dən artıq bir hissəsi kimya sənayesinin payına düşür. “SOCAR Polymer” zavodları ətrafında yeni müəssisələrdən ibarət sənaye klasterinin təşəkkül tapacağını nəzərə alaraq qarşıdan gələn bir neçə il ərzində ölkənin kimya sektorunda ciddi artım gözlənilir.

### Əsas məqsəd qeyri-neft ixracını artırmaq, ölkə iqtisadiyyatını şaxələndirməkdir

Xəbər verildiyi kimi, fevralın 18-də ölkə Prezidenti İlham Əliyevin iştirakı ilə “SOCAR Polymer” layihəsi çərçivəsində yüksək sıxlıqlı polietilen zavodunun təntənəli açılışı olub. Mərasimdə SOCAR rəhbərliyi və SOCAR Polymer zavodlarının inşasını həyata keçirmiş şirkətlərin təmsilçiləri iştirak ediblər. Dövlətimizin başçısı müəssisənin kollektivi ilə görüşdəki nitqində qeyd edib ki, Sumqayıt Kimya Sənaye Parkında bir çox müəssisələr fəaliyyət göstərir və onların arasında “SOCAR Polymer”in əlbəttə ki, xüsusi yeri vardır: “Zavodun istehsal gücü 300 min ton olacaqdır. Bu, bizim qeyri-neft ixracımızın 15 faiz artımı deməkdir. Bizim əsas məqsədimiz qeyri-neft ixracını artırmaq, ölkə iqtisadiyyatını şaxələndirmək, yeni iş yerləri açmaq və Azərbaycanda müasir texnologiyalı müəssisələrin yaradılmasına nail olmaqdır. Bununla paralel olaraq, belə böyük, texnoloji cəhətdən müasir zavodların fəaliyyəti gənclərin hazırlanmasına da xidmət göstərir. Siz müasir sənaye müəssisəsində çalışacaqsınız və bu müəssisənin fəaliyyəti ölkəmizi gücləndirəcək.”

Xatırladaq ki, 2018-ci il iyulun 18-də Azərbaycan Prezidenti İlham Əliyevin və İtaliya Prezidenti Sercio Mattarellanın iştirakı ilə layihə çərçivəsində inşa olunan polipropilen zavodunun açılışı olub.

Zavodun istismara verilməsi indiyə qədər ölkəyə idxal edilən yüksək sıxlıqlı polietilen məhsuluna tələbatı tam ödəməyə imkan yaradacaq. İlkin proqnozlara görə, “SOCAR Polymer” zavodları ildə 10 çeşiddə 184 min ton polipropilen və 4 çeşiddə 120 min ton yüksək sıxlıqlı polietilen istehsal edəcək. Zavodların istismar dövründə 6.6 milyard dollar həcmində gəlir gətirəcəyi gözlənilir ki, bunun da 30 faizini şirkətin xalis mənfəəti təşkil edəcək. Bundan əlavə, istismar müddətində “SOCAR Polymer” tərəfindən dövlət büdcəsinə ümumilikdə 600 milyon dollar həcmində verginin ödənilməsi nəzərdə tutulur. SOCAR-ın yeni sənaye kompleksinin fəaliyyətə başlaması ilə daxili bazarın tələbatı tam təmin olunacaq və məhsulun 75 faizi isə Türkiyə və Avropa bazarlarına ixrac ediləcək. İlkin qiymətləndirmələrə görə, “SOCAR Polymer” zavodlarının fəaliyyəti Azərbaycanın qeyri-neft sektorunun ixrac gəlirlərini 15 faiz, Abşeron iqtisadi regionunun ümumi daxili məhsulunun həcmini isə 14 faizdən çox artıracaq.




### Sumqayıt bu gün nəinki Azərbaycanın, Cənubi Qafqazın ikinci böyük sənaye şəhəridir

Zavodun fəaliyyətə başlamasının Sumqayıt şəhərinin ümumi inkişafına böyük töhfə olduğunu deyən Prezident İlham Əliyev vurğulayıb ki, Sumqayıt bu gün nəinki Azərbaycanın, Cənubi Qafqazın ikinci böyük sənaye şəhəridir: “Son illərdə Sumqayıtda bir çox müasir müəssisələr yaradılıb. Bu il Sumqayıt Kimya Sənaye Parkında bir neçə müəssisənin açılışı nəzərdə tutulur. Sumqayıtın həm sənaye, həm iqtisadi, sosial inkişafı daim diqqət mərkəzindədir. Sumqayıt bu gün yüksək ekoloji standartlara uyğun şəhərlərdən biridir. Bu gün isə Sumqayıtın gözəl havası, ictimai yerləri var, istirahət üçün parklar yaradılıb, vaxtilə salınmış parklar abadlaşdırılıb, Sumqayıt bulvarı yaradılıb, özü də qısa müddət ərzində. Bu da çox gözəl hadisədir. Yəni şəhərin ümumi inkişafı ilə bağlı çox böyük tədbirlər görülür, infrastruktur layihələri icra edilir.”

“SOCAR Polymer” Azərbaycanın neft-kimya sənayesində dövlət-özəl sektor tərəfdaşlığı üzrə yaradılan ilk şirkətdir. Layihəni həyata keçirmək üçün İtaliyanın “Maire Tecnimont”, Niderlandın “Fluor” şirkətləri və digər şirkətlər cəlb edilib. Layihə çərçivəsində milli mühəndis kadrlarının ixtisaslarının artırılması təmin olunacaq. Bu məqsədə çatmaq üçün vahid layihə idarəetmə qrupu yaradılıb. “Fluor” şirkəti milli mühəndis kadrları və digər işçilər üçün Amsterdamda, Milanda və Mumbayda ixtisas kursları təşkil edib. Bundan başqa, ekoloji və sosial təsirlərin minimuma endirilməsi, zərərli maddələrin və maye tullantılarının zərərsizləşdirilməsi diqqət mərkəzində saxlanılıb. Odur ki, beynəlxalq lisenziyalardan əldə edilən texnologiya əsasında fəaliyyət göstərəcək bu zavodlar istehsal prosesi və məhsulun keyfiyyəti baxımından ən yüksək beynəlxalq standartlara cavab verəcək.

### Mindən çox iş yeri, gənclər üçün gözəl imkanlar...

Dövlətimizin başçısı müəssisənin kollektivi ilə görüşdə vurğulayıb ki, burada yeni iş yerlərinin yaradılması prosesi təmin olunur, təxminən 500-dən çox yeni iş yeri açılır: “Bu yaxınlarda karbamid zavodunun açılışında iştirak edərkən məlumat verildi ki, orada da 500-dən çox iş yeri yaradılır. Yəni bu iki mühüm müəssisənin əhəmiyyəti çox böyükdür. İlk növbədə, bu iki müəssisəyə 1,6 milyard dollar sərmayə qoyulub. Çox böyük rəqəmdir. Özü də nəzərə alsaq ki, bu sərmayə qeyri-neft sektoruna qoyulur. Digər tərəfdən, burada istehsal olunan məhsullar ixracyönümlüdür və ölkəmizə valyuta gələcək. Biz təkcə neftdən, qazdan yox, eyni zamanda, hazır məhsuldan valyuta qazanacağıq.”

Dövlət başçısı deyib ki, burada müasir texnologiyalar tətbiq olunur və Azərbaycanın texnoloji inkişafına bunun müsbət təsiri var. Mindən çox iş yeri, gənclər üçün gözəl imkanlar yaradılır: “Yəni, bir sözlə, belə böyük layihələrin icrasının çox böyük mənası, çoxşaxəli təsiri var və bir daha onu göstərir ki, Azərbaycan düzgün yoldadır. Biz bu layihələrə start verəndə, əlbəttə, təxmin edirdik ki, bu, çox gözəl nəticələrə gətirib çıxaracaq. Bu gün biz bunu əyani şəkildə müşahidə edirik. Bundan sonra da Azərbaycanın sənaye potensialı inkişaf edəcək. Sənayeləşmə öz gözəl nəticələrini verir. Keçən il qeyri-neft sektorunda sənaye istehsalı 9 faizdən çox artmışdır, bu ilin birinci ayında isə 14 faizə yaxın artmışdır, o cümlədən bu zavodların fəaliyyətə başlaması nəticəsində. Əlbəttə ki, bundan sonra da qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın şaxələndirilməsi, müasir zavodların, fabriklərin yaradılması prioritet olaraq qalacaqdır. Əminəm ki, belə müəssisələr gələcəkdə bizim sənaye imkanımızı böyük dərəcədə artıracaqdır və ölkəmiz davamlı olaraq inkişaf yolu ilə gedəcəkdir.”

Məlumat üçün bildirək ki, artıq Türkiyə, Rusiya, Belarus və Ukraynadan sifarişlər qəbul edilib. Zavodda “Made in Azerbaijan” brendi ilə istehsal olunan polipropilen qatarla sifariş olunan ölkələrə yola salınıb.

Bütün bunlar bir daha sübut edir ki, ölkə sənayesinin və qeyri-neft sektorunun inkişafı Prezident İlham Əliyevin iqtisadiyyatın şaxələndirilməsi siyasətinin başlıca istiqamətlərindəndir. Sənaye sahələrinin inkişafı istiqamətində atılan addımlar, sənaye parklarının, məhəllələrinin yaradılması ilə bərabər, aqroparkların yaradılması kompleks şəkildə gələcək üçün planlaşdırılmış layihələrdir.

**Orxan Vahidoğlu,**
***“İki sahil”***

# *Əli Əhmədov:* Azərbaycan-Türkiyə qardaşlıq əlaqələrinin qarşısını almaq mümkün olmayacaq







**Ötən gün Yeni Azərbaycan Partiyasında ölkəmizdə səfərdə olan Türkiyə Böyük Millət Məclisinin Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvləri ilə görüş keçirilib.**

Qonaqları səmimi salamlayan Yeni Azərbaycan Partiyasının Sədr müavini-icra katibi, Baş nazirin müavini Əli Əhmədov Azərbaycan-Türkiyə münasibətlərindən bəhs edərək iki ölkə arasındakı dostluq əlaqələrinin strateji əhəmiyyət daşıdığını, bu əlaqələrin tarixi köklərə bağlı olduğunu xatırladıb: “Bu, ölkələrin dostluğudur, bu, xalqların qardaşlığıdır. Təbiidir ki, bunun qarşısını almaq mümkün deyil”.

Azərbaycan və Türkiyənin iqtisadiyyatlarının da biri-birinə sıx bağlı olduğunu diqqətə çatdıran Ə.Əhmədov ölkəmizin həyata keçirdiyi enerji layihələrinin qardaş ölkənin ərazisindən keçdiyini, bunun iqtisadi və coğrafi tərəfi ilə yanaşı, dostluq münasibətlərinə də bağlı olduğunu vurğulayıb: “Türkiyə və Azərbaycanın həyata keçirdikləri birgə iqtisadi layihələr iki ölkənin qardaşlığını daha da gücləndirir. Bu nüans iki ölkə arasında dostluq münasibətlərini daha da möhkəmləndirməyə xidmət edir”.

Ə.Əhmədov qardaş ölkədəki əmin-amanlığın sevindirici hal olduğunu vurğulayaraq bunun qürur hissi yaratdığını bildirib. Yeni Azərbaycan Partiyasının Sədr müavini-icra katibi Türkiyənin yerləşdiyi regionda gedən proseslərə də toxunaraq bölgədəki gərginliyə rəğmən, qardaş ölkədə sabitliyin hökm sürdüyünü, ölkə rəhbərliyinin səyləri nəticəsində əhalinin təhlükəsizliyinin təmin edildiyini qeyd edib. Baş nazirin müavini bildirib ki, hazırda Türkiyə dünyanın ən güclü ölkələrindən birinə çevrilib: “Biz bundan qürur duyuruq. Türkiyə ilə yanaşı, Azərbaycan da güclənir. Bu iki ölkənin gücü onların möhtəşəmliyini daha da artırır. Güman edirəm ki, Türkiyə də Azərbaycanın inkişafından qürur duyur. Azərbaycan-Türkiyə qardaşlıq əlaqələrinin qarşısını almaq mümkün olmayacaq”.

Həmçinin iki ölkənin əlaqələrinin tarixindən danışan Baş nazirin müavini ötən dövr ərzində münasibətlərin inkişaf etməsinin, eyni zamanda, qarşılıqlı səfərlərə bağlı olduğunu diqqətə çatdırıb. Bildirib ki, bu səfərlər Azərbaycan-Türkiyə münasibətlərinin təntənəsinə çevrilib.

Hazırda azərbaycanlıların xaricə istirahət üçün ən çox üz tutduqları ölkənin Türkiyə olduğunu bildirən Ə.Əhmədov bunu qardaş ölkənin təbiəti ilə bərabər, xalqlarımız arasında əsrlər boyu davam edən qardaşlıq, dostluq münasibətləri ilə izah edib: “Türkiyədən gələn hər bir qonaq Azərbaycan üçün əzizdir. Eyni hissləri biz Türkiyəyə gedəndə yaşayırıq. Türkiyə-Azərbaycan dostluğunun əsası ulu öndər Heydər Əliyevin zamanında qoyulub. Biz istəyirik ki, türkiyəli qardaşlarımız da ölkəmizə səfərlər etsinlər, buradakı inkişafı onlar da görsünlər. Son illərdə Azərbaycan da xeyli yenilənib, bölgələrin siması dəyişib. Hesab edirəm ki, bu, Azərbaycanla bərabər, eyni zamanda, qardaş Türkiyənin də nailiyyətidir. Düşünürəm ki, ölkəmizin qazandığı uğurlar Türkiyədə də böyük sevinclə qarşılanır”.

Ə.Əhmədov Azərbaycan-Türkiyə münasibətlərinin özünü beynəlxalq təşkilatlar çərçivəsində də göstərdiyini vurğulayaraq beynəlxalq tədbirlərdə iki ölkənin “səsinin birgə eşidilməsini” bu əlaqələrin əyani göstəricisi hesab edildiyini bildirib. Bu çərçivədə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Türkiyənin səylərini müsbət qiymətləndirən Ə.Əhmədov bunun problemin ədalətli həlli üçün böyük dəstək olduğunu diqqətə çatdırıb.

Bu yaxınlarda Türkiyənin həyatında əlamətdar hadisələrdən birinin - bələdiyyə seçkilərinin keçiriləcəyini də xatırladan Ə.Əhmədov həmişə olduğu kimi, bu dəfə də türk xalqının seçkinin müqəddəratını həll edəcəyinə əminliyini ifadə edib.

Öz növbəsində Azərbaycanda olmaqdan məmnunluğunu ifadə edən Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım bildirib ki, Azərbaycan-Türkiyə münasibətləri dünya dövlətləri üçün bir nümunədir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dövlət başçısı kimi ilk səfərini Azərbaycana etdiyini xatırladan Ş.Aydın bunun iki ölkə arasında olan əlaqələrin səviyyəsinə bir daha aydınlıq gətirdiyini vurğulayıb: “Hər iki dövlət başçısının səyləri nəticəsində ölkələrimiz arasında mövcud əlaqələr ən yüksək səviyyəyə çatıb. Biz də bu münasibətlərə öz töhfəmizi verə bilərik”.

Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri, həmçinin deyib ki, iki ölkənin siyasi, iqtisadi və digər sahələrdə güclü əməkdaşlığı mövcuddur. Türkiyə iqtisadiyyatında Azərbaycanın çox mühüm yeri var.

Görüş müzakirələrlə davam edib.

**✍ Ceyhun Piriyev,**
**Vüsal Cahanov (foto),**
***“İki sahil”***

## *Siyavuş Novruzov:* Görülən işləri kiminsə öz adına çıxması yolverilməzdir



“Bəzi insanlar ölkə başçısı tərəfindən həyata keçirilən layihələri, atılan addımları öz adlarına yazmağa çalışırlar. Əslində həmin şəxslər xalqı aldatmaq üçün bu addımları atırlar”. Bu fikirləri YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov parlamentin dünən keçirilən iclasında çıxış edərkən deyib.

”Bilirsiniz ki, cənab İlham Əliyev Prezident seçildiyi gündən islahatların keçirildiyini bəyan edib. Ayrı-ayrı sahələrdə insanların təminatı ilə bağlı proqramlar hazırlanıb və həyata keçirilib. Lakin bəziləri insanları aldatmaq, ölkə başçısının atdığı addımları öz adlarına çıxmaq istəyirlər. Bu onların naşılığıdır. Hansı ki, həmin insanlar vaxtilə büdcəni talamaqla məşğul idilər”,- deyə deputat söyləyib.

S.Novruzov söyləyib ki, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində yerlərdə emal müəssisələri açılır, çox böyük proqramlar, vergidə, gömrükdə islahatlar həyata keçirilir: ”Vətəndaşlar atılan bu addımları müsbət qarşılayır. Bu addımlar kiminsə yürüş, piket keçirməsinin nəticəsi deyil. Həmin şəxslər əksinə, bu layihələrin həyata keçirilməsini istəmirlər. Görülən işləri kiminsə öz adına çıxması yolverilməzdir”.

## *Bəhruz Quliyev:* Milli xəyanətkarlar toplumu bundan sonrakı cəhdlərində də fiaskoya uğramaqda davam edəcəklər

Milli xəyanətkarlar toplumu bundan sonrakı cəhdlərində də ciddi fiaskoya uğramaqda davam edəcəklər. Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, professor Əli Həsənovun bu günlərdə yazdığı məqalə belə deməyə əsas verir ki, son vaxtlar müxalifətin tamamilə siyasətdən kənar və cəmiyyətə layiq olmayan davranışlarının qarşısı məhz xalq tərəfindən alınmalıdır. Daha dəqiq desək, xalq-dövlət birliyi dağıdıcı təfəkkürə malik müxalifətin uğursuzluğunu daha açıq şəkildə göstərir.

“İki sahil” xəbər verir ki, bu fikirləri AZƏRTAC-a açıqlamasında “Səs” Media Qrupunun rəhbəri, siyasi ekspert Bəhruz Quliyev deyib. O qeyd edib ki, bu gün istər AXCP, istər “Milli Şura” kimi qurumlarda toplaşan “demokratlar” dövlətin xalq üçün gördüyü işlərdən, inqilabi islahatlardan ciddi şəkildə narahat olmağa başlayıblar. Əbəs deyil ki, istər buradakı siyasətbazlar, istərsə də onların xarici ölkələrdəki havadarları bu cür “fəallaşmaqla” Azərbaycan dövlətinin milli maraqlarına qarşı açıq-aşkar düşmənçilik mövqeyi sərgiləyirlər. Xalqın hakimiyyəti dəstəkləməsi, xalq-iqtidar birliyi radikal və dağıdıcı təfəkkürlü müxalifətin öz məğlubiyyətini etiraf etməsi ilə nəticələnir. Yəni əldə edilən uğurlara qarşı müxtəlif cəhdlər olursa, bunun özü məğlubiyyət etirafı kimi qiymətləndirilməlidir.

B.Quliyev qeyd edib ki, istər Əli Kərimli, Cəmil Həsənli, istərsə də digər milli xəyanətkarlar toplumu xalq, dövlət vəhdəti qarşısında öz cılız siyasətlərini yürüdə bilməyəcəklər. Güclü dövlət, güclü xalq amili məhz bu cür düşünməyə zəmin yaradır. Bu, həm də bir reallıqdır ki, dövlətimizin əldə etdiyi nailiyyətlər, istər beynəlxalq arenada, istərsə də daxili siyasətdəki uğurlu



nəticələr radikalizmin, milli xəyanətin və bu xəyanətdə iştirak edən bir qrup ünsürün qarşısını kəsməkdədir. Xalqımız dövlətinin və Prezidentinin yanında olmaqla xəyanətkarların, antidövlətçilərin fəallaşmasına imkan vermir. Xalqımız öz müdrikliyi ilə bundan sonra da dövlətimizin, Prezidentimizin ətrafında sıx birləşəcək. Buna heç bir şübhə yoxdur.

*Türkiyə prezidentinin köməkçisi:*

## Ankara ilə Bakı arasındakı münasibətlər sürətlə inkişaf edir



Türkiyə və Azərbaycan liderlərinin səyləri nəticəsində Ankara ilə Bakı arasındakı münasibətlər yüksələn xətt üzrə inkişaf edir.

Bunu Türkiyə prezidentinin köməkçisi Yalçın Topçu deyib. Onun sözlərinə görə, ən çətin vaxtlarda Azərbaycan və Türkiyə bir-birini dəstəkləyib: "Türkiyə ilə Azərbaycanın münasibətləri əvvəlki kimi bütün istiqamətlərdə inkişaf edəcək".

Y.Topçu əlavə edib ki, ölkələr təhsil sahəsində də fəal əməkdaşlıq edir və Türkiyədə 20 min azərbaycanlı, Azərbaycanda isə 4 min türkiyəli tələbə təhsil alır.

*Səttar Möhbalıyev:*

## Bəzi müxalifət nümayəndələri Prezident İlham Əliyevin gördüyü işlərə kölgə salmağa cəhd edirlər



Bəzi müxalifət nümayəndələri Prezident İlham Əliyevin gördüyü işlərə kölgə salmağa cəhd edirlər. Bunu Milli Məclisin dünən keçirilən plenar iclasında deputat Səttar Möhbalıyev deyib.

S.Möhbalıyev bildirib ki, həmin şəxslər sosial şəbəkələrdə təhqirlər səsləndirirlər: "Bu insanlar Azərbaycan xalqının nümayəndəsi ola bilməz. Düşünmürəm ki, bir azərbaycanlı digər azərbaycanlı haqqında belə fikirlər səsləndirsin".

O qeyd edib ki, ölkə başçısının fəaliyyəti nəticəsində hər il yüz minlərlə iş yerləri yaradılır: "Gərək biz həmin şəxslərin cavablarını verək, görülən işlərin təbliğatını aparaq. Biz ölkə rəhbərliyinin apardığı siyasəti dəstəkləyirik".

*Əflatun Amaşov:*

## Qonşu ölkələrin radio dalğalarının Azərbaycanda yayımının qarşısı alınmalıdır



Bakıdan çıxıb Hacıqabula çatanda İran radiolarının dalğaları bizim radioları üstələyir. Ağsu aşırımında erməni radiosunun dalğaları eşidilir, Gəncəni keçən kimi Gürcüstanın radio dalğaları hakimdir.

Bunu Milli Məclisin dünən keçirilən plenar iclasında Mətbuat Şurasının sədri, deputat Əflatun Amaşov deyib.

Deputat qeyd edib ki, bununla bağlı qanunvericiliyə dəyişiklik edilməsi vacibdir: "Hər bir ölkənin quru sərhədi olduğu kimi, informasiya məkanının da sərhədi var. Ölkəmizin gələcəyi naminə hər iki sərhədimizi qorumalıyıq. Hesab edirəm ki, bununla bağlı müvafiq qurumlar qarşısında məsələ qaldırmalıyıq".

*Vüqar Bayramov:*

## Azərbaycan Prezidenti bu Fərmanla "çoxillik həllolunmaz problem"ə son qoydu



Azərbaycan Prezidentinin "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" Fərmanı uzun müddət müzakirə edilən və vətəndaşlarımız üçün aktual olan problemin həllinə hüquqi zəmin formalaşdırıb. Nəzərə alsaq ki, çoxmənzilli binaların istismarı prosesi ciddi şəkildə sadələşdirilir, bu, olduqca mühüm bir Fərmandır. Bir sözlə, Azərbaycan Prezidenti bu Fərmanla "çoxillik həllolunmaz problem"ə son qoydu.

"İki sahil" xəbər verir ki, bu fikirləri AZƏRTAC-a açıqlamasında iqtisadçı ekspert Vüqar Bayramov deyib. Ekspert qeyd edib ki, 2019-cu il yanvarın 1-dək inşa edilmiş bütün çoxmənzilli binalarla bağlı Fövqəladə Hallar Nazirliyi tərəfindən rəyin hazırlanması və Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə verilməsi nəzərdə tutulur. Müsbət rəy alan binalar komitə tərəfindən istismara buraxılacaq və həmin mənzillərdə yaşayan vətəndaşlar çıxarışla təmin olunacaq. Fövqəladə Hallar Nazirliyi rəyi iki ay ərzində Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə təqdim edəcək. Komitə isə binaların yeddi gün ərzində istismara verilməsi ilə bağlı qərar qəbul edəcək. Göründüyü kimi, olduqca qısa zamandır. Yeni Fərman imkan verəcək ki, vətəndaşlar çoxmənzilli binalarda kommunal xidmətlərlə tam təmin olunsunlar.

Ekspert əlavə edib ki, bu gün xeyli sayda bina var ki, onlarla bağlı rəy olmadığı üçün qazla təmin edilməyib. Yeni Fərman bu kimi problemlərin aradan qaldırılmasına imkan verəcək. Bu proses bir ay müddətində həyata keçiriləcək.

Vüqar Bayramov qeyd edib ki, bu Fərmanın imzalanması əhalinin yaşayış səviyyəsinin və sosial rifahının yüksəldilməsi dövlət siyasəti istiqamətində atılan daha bir önəmli addımdır.

# Prezident növbəti dəfə on minlərlə ailəni sevindirdi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin əhalinin sosial şəraitinin yaxşılaşdırılması istiqamətində həyata keçirdiyi tədbirlər gündən-günə genişlənir. Bu baxımdan fevralın 19-da dövlət başçısı tərəfindən imzalanan Fərman da böyük əhəmiyyət daşıyır. İctimaiyyət arasında inqilabi hadisə kimi qiymətləndirilən "Bəzi çoxmərtəbəli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" Prezident Fərmanı uzun illərdən bəri yığılıb qalan problemin qısa müddətdə və əhalinin xeyrinə həll edilməsi sürətləndirəcəkdir.

Azərbaycan Prezidentinin sosialyönümlü siyasətinin əsasını təşkil edən humanizm prinsiplərinə söykənən bu məsələ çoxmənzilli binalarda yaşayan, lakin bu günədək mənzillərini sənədləşdirə bilməyən sakinlərin xeyli müddətdir yığılıb qalan problemlərini birdəfəlik həll edəcəkdir. Sözügedən Fərman əhalinin mənafelərini əsas götürərək, həmin binaların istismarına icazə verilməsi qaydalarını və vaxtını sadələşdirmək, bu sahədə şəffaflığı və vətəndaş məmnunluğunu təmin etmək məqsədi ilə imzalanıb. Qeyd edək ki, Fərmanda 2019-cu il yanvarın 1-dək bütün mərtəbələrinin, yan divarlarının və dam örtüyünün inşası daxil olmaqla tikinti-quraşdırma işləri başa çatmış və istismar edilən mənzilləri olan çoxmənzilli yaşayış binalarının istismarına icazə verilməsi qaydaları müəyyənləşdirilir. Fərmanda vurğulanır ki, ölkənin sosial-iqtisadi inkişafı konsepsiyasına uyğun olaraq vətəndaşların mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına hədəflənən məqsədyönlü və sistemli tədbirlər həyata keçirilir.

Burada bir məsələni də vurğulamaq lazımdır ki, son illərdə Azərbaycan iqtisadiyyatının bütün sahələrində olduğu kimi, inşaat sektorunda da əhəmiyyətli inkişaf müşahidə olunur. Tikinti sektoruna qoyulan investisiyaların böyük bir qismi çoxmənzilli yaşayış binalarının inşasına yönəldilir. Lakin bununla yanaşı, bəzən həmin binaların inşası zamanı müəyyən qüsurlara yol verilmiş, şəhərsalma qanunvericiliyinin tələblərinə ciddi riayət olunmamışdır. Buna baxmayaraq dövlət başçısının sözügedən Fərmanı minlərlə ailənin mənzil probleminin həllində böyük humanist akt kimi qəbul edilir.



Xatırladaq ki, ümumiyyətlə, mənzillərin qeydiyyatı və sənədləşdirilməsi işi son illərdə ölkə başçısı tərəfindən xüsusi dəqqətdə saxlanılır və həll edilir. Hələ 15 yanvar 2015-ci ildə Prezident İlham Əliyev "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minənədək əldə edilmiş və yaranmış daşınmaz əmlak obyektləri üzərində hüquqların əldə edilməsini təsdiq edən sənədlərin Siyahısı"nın təsdiq edilməsi barədə Fərman imzalayıb. Bu Fərman təkcə yaşayış evlərinə deyil, bütövlükdə daşınmaz əmlak sektorunda qeydiyyat işinin və sənədləşdirmənin sürətlənməsinə və sadələşdirilməsinə təkan verib. Bundan başqa, əhaliyə məxsus fərdi evlərin sənədləşdirilməsi istiqamətində də bir neçə ildir ki, mühüm addımlar atılır. Bunun nəticəsində daşınmaz əmlakın sənədləşdirilməsi və dövlət qeydiyyatına alınması sahəsində fərdi evlərə mülkiyyət hüququ əldə edən vətəndaşların sayı artıb. "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanuna edilən dəyişikliklərin tətbiq olunmasından sonra qeydiyyatsız fərdi evlərin sənədləşdirilməsi daha da asanlaşıb.

Çoxmənzilli binalarda evlərin sənədləşdirilməsi ilə bağlı Prezident tərəfindən atılan addım böyük şəhərlərdə, o cümlədən paytaxt Bakıda minlərlə vətəndaşın daşınmaz əmlak hüququnu təmin edəcək. İnsanlar yaşadıqları mənzillərin əsl sahiblərinə çevriləcəklər.

Prezident İlham Əliyevin bu Fərmanı vətəndaşlar tərəfindən yüksək sevinc və razılıqla qarşılanıb. Bu, dövlət başçısının əhaliyə göstərdiyi böyük diqqət və qayğının təzahürü kimi qiymətləndirilir.

**Taleh Turqut, "İki sahil"**

*Vüqar Rəhimzadə:*

## Əli Kərimli öz liderinə xəyanətlə qazandığı "təcrübəni" indi də Azərbaycan dövlətinə qarşı istifadə edir

Fərqli və uğurlu inkişaf modeli, müasir və daha çevik idarəetmə mexanizmi, vətəndaşlara ən yüksək səviyyədə diqqət və qayğı... Və daha nələr-nələr. Sadaladığımız bu və digər faktlar bugünkü Azərbaycanın reallıqlarıdır. Ölkəmizlə bağlı daxildə və xaricdə baş verən hadisələr həqiqətən də təqdirəlayiqdir və xalq tərəfindən böyük rəğbətlə qarşılanır.

Heydər Əliyev siyasətinin, Prezident İlham Əliyevin 15 illik siyasi fəaliyyətinin müstəqil Azərbaycanın inkişafında müstəsna yeri və rolu var. Sadəcə, bir neçə statistik rəqəmə diqqət yetirmək kifayətdir. Son 15 ildə Azərbaycan iqtisadiyyatı 3,3, maaşlar 7, pensiyalar 9, valyuta ehtiyatları 24 dəfə artıb, işsizlik və yoxsulluğun həddi 5 faizə enib. Bununla yanaşı, 102 məcburi köçkün düşərgəsi salınıb, 300 min məcburi köçkün müasir yaşayışla təmin edilib, şəhid ailələrinə 7 minə yaxın mənzil, müharibə əlillərinə 6 mindən çox maşın verilib. Sözsüz ki, yüzlərlə, minlərlə bu kimi faktlar sadalamaq olar. Sadəcə, illərdir özünü xalqa müxalifət kimi təqdim edən, əslində isə xarici anti-Azərbaycan dairələrə işləyən Əli Kərimli və onun kimi qrant hərisləri bu gerçəklikləri görməyərək nadürüst əməllərindən əl çəkmirlər. Ona görə də Azərbaycan Prezidentinin rəhbərliyi ilə həyata keçirilən mükəmməl islahatların və əldə olunan uğurların daxili antimilli ünsürləri narahat etməsi "başadüşüləndir".



**Bu fikirləri AZƏRTAC-a açıqlamasında YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə deyib.**

Vüqar Rəhimzadə bildirib ki, dünya dəyişir, inkişaf edir. Bu mənada Azərbaycan da öz inkişafının yeni mərhələsinə qədəm qoyub. Təbii ki, müasir dövrün çağırışlarına uyğun islahatlar həyata keçirmək daha aktualdır. Ölkə rəhbərliyi bunu görür və gələcək planlar, strategiyalar bu aktuallığa uyğun olaraq qurulur, müəyyən edilir. Əli Kərimli kimilərin ölkəmizlə bağlı "planları" isə hər zaman xaricdə qurulur və ona tezis formasında ötürülür. Təbii ki, bu "planlar" Azərbaycan üçün yaxşı heç nə vəd etmir. Ə.Kərimli günbəgün yenilənən və inkişaf edən Azərbaycanın uğurlarını həzm edə bilmir və vaxtilə öz liderinə xəyanət edərək qazandığı "təcrübəni" Azərbaycanda tətbiq etməyə can atır. Bu gün dünya ölkəmizin "ASAN xidmət" inqilabından yararlanır, Ə.Kərimli isə vətəndaş qarşıdurması yaratmağa, Suriyanın "inqilab təcrübəsini" tətbiq etməyə çalışır. Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, professor Əli Həsənov "Müxalifətçilik missiyası və Azərbaycanın milli maraqları" sərlövhəli məqaləsində bu məsələlərə toxunub və müxalifəti faktlar qarşısında qoyaraq Ə.Kərimlinin iç üzünü bir daha xalqa nümayiş etdirib. Əli Həsənovun fikirləri Ə.Kərimlinin bu illər ərzindəki fəaliyyətinə verilən ən tutarlı qiymətdir.

"İki sahil" qəzetinin baş redaktoru əlavə edib ki, Ə.Kərimli və onun kimilərin əsassız iddiaları xalq gözündə heç bir dəyəri olmayan bu ünsürlərin son çırpınışlarıdır: "Bu gün biz Prezidentimizin simasında əsl liderlik nümunəsi görürük. Ölkəmizin başçısı şəhid ailələrinə kompensasiya ödənilməsi ilə bağlı Sərəncam imzalayır, minimum əməkhaqları təqribən 40 faiz artırılır, tələbələrin təqaüdləri yüksəlir, qaçqınlara və məcburi köçkünlərə müasir mənzillər və evlər verilir, yeni iş yerləri yaradılır, bir sözlə, xalqın sosial rifahını daha da yaxşılaşdırmaq üçün lazım olan bütün addımlar atılır. Ancaq Əli Kərimli və onun kimilər yenə narazıdır. İnsan öz xalqına, Vətəninə bu qədərmi düşmən kəsilə bilər?! Görünür, Əli Kərimlidə xalq, Vətənlə bağlı heç bir mənəvi dəyər qalmayıb. Bu cür dəyərsiz insanların sözü də dəyərsiz olur".

# BANM-də “PMI Azerbaijan 2019” sammiti

**Bakı Ali Neft Məktəbində (BANM) Layihə idarəetmə İnstitutunun (PMI - Project Management Institute) yaradılmasının 50-ci ildönümünə həsr olunmuş “Müvafiq layihə idarəetmə metodlarının tətbiqi və onların müasir idarəetmədə rolu” mövzusunda “PMI Azerbaijan 2019” sammiti keçirildi.**

BANM-in təşkilati dəstəyi ilə PMI-ın Azərbaycandakı nümayəndəliyi - PMI Azerbaijan Chapter (Potential) tərəfindən təşkil olunan sammitdə informasiya texnologiyaları, sənaye, tikinti, maliyyə və təhsil sahələrində fəaliyyət göstərən dövlət və aparıcı özəl təşkilatlardan 100-ə yaxın nümayəndə iştirak edirdi.

Tədbirin aparıcısı Kənan Məmmədov təşkilatın yaradılması və fəaliyyəti barədə qısa məlumat verdi.

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov, sammit iştirakçılarını salamlayaraq layihə idarəetməsi sahəsində mütəxəssislərin hazırlanmasının və müasir idarəetmə metodlarının bütün sahələrdə tətbiq olunmasının vacibliyini vurğuladı. Ali məktəbin inkişafı, fəaliyyəti və nailiyyətləri haqqında danışarkən rektor bildirdi ki, BANM-in nəzdində PMI-ın bütün standartları əsasında hazırlanan xüsusi təlim proqramı - Layihə idarəetmə məktəbi uğurla fəaliyyət göstərir. Bu proqramın məzunlarını ABŞ-ın Corc Vaşinqton Universitetinin magistr sertifikatlarını almış milli və beynəlxalq şirkətlərin onlarla aparıcı əməkdaşları təşkil edir. Çıxışının sonunda rektor Elmar Qasımov sammit iştirakçılarına uğurlar arzuladı.



Birinci paneldə ilk olaraq PMI-ın Azərbaycan Nümayəndəliyinin İdarə Heyətinin sədri Emil İsmayılxanovun məruzəsi dinlənildi. O, təşkilatın inkişaf perspektivlərindən, qarşıda duran məsələlər və fəaliyyət proqramından danışdı. PMI nümayəndəliyinin Türkiyədəki vitse-prezidenti, Türk Hava Yolları şirkətinin layihə və portfel meneceri Ömür Benekin təqdimatı nümayəndəliyin işinə və onun regional və beynəlxalq PMI təşəbbüslərində iştirakına həsr edilmişdi. Sessiya, PMI-ın Azərbaycandakı İdarə Heyətinin üzvü Nigar Cəfərovanın “Məktəblilər üçün layihə idarəetmə dərsləri” layihəsinin həyata keçirilməsi üçün nəzərdə tutulan tədbir və strategiyalar barədə çıxışı ilə sona çatdı.

Sonda suallar cavablandırıldı.

Dövlət və özəl sektorda layihə idarəetməsində müasir metodların tətbiqi və perspektivlərinə həsr olunmuş növbəti paneli moderator, Bakı Fond Birjasının İdarə Heyətinin sədri və PMI-ın Azərbaycandakı İdarə Heyətinin üzvü Vüqar Namazov açdı.

Paneldə Elektron Hökumətin İnkişafı Mərkəzi PHŞ-nin direktoru Fariz Cəfərov, Türk Hava Yolları şirkətinin layihə və portfel meneceri Ömür Benek və layihələrin idarə olunması üzrə ekspert Elçin Məmmədov məruzə və təqdimatlarla çıxış etdilər. Daha sonra aktual məsələlər müzakirə olundu və Azərbaycanda layihələrin idarə olunmasının inkişaf planı ilə bağlı suallar cavablandırıldı.

Layihə İdarəetmə İnstitutu - 1969-cu ildə yaradılan və dünya üzrə layihə menecerləri arasında təcrübə, bilik və bacarıqların mübadiləsini qarşısına məqsəd qoymuş ən böyük beynəlxalq təşkilatdır. PMI tədqiqatlar aparır, regional ofislərlə əməkdaşlığı inkişaf etdirir, konfranslar və seminarlar təşkil edir, həmçinin layihə idarəetmə sahəsində standartlar və akkreditasiya işlərini inkişaf etdirir.

PMI-ın Azərbaycan nümayəndəliyinin yaradılması üzrə işlərə 2016-cı ilin fevral ayında başlanılıb və 2017-ci ilin may ayında Azərbaycan nümayəndələri ilk dəfə olaraq Romada baş tutmuş “PMI Leadership Institute Meeting” toplantısında iştirak ediblər. Elə həmin toplantıda “PMI European Chapter Collaboration” yaradılmasına dair qərar verilib. Bu təşəbbüsü ilk dəstəkləyən məhz elə Azərbaycan Nümayəndəliyi olub və müvafiq memorandumu imzalayıb. “PMI Azerbaijan”a “Potential Chapter” statusu 2018-ci il mayın 4-də Berlində imzalanan müqavilə nəticəsində verilib.

**Zamin Məmmədov,**
***“İki sahil”***

# BSU-nun tələbələri Cocuq Mərcanlıda

**Fevralın 19-da Bakı Slavyan Universitetində (BSU) istehsalat və pedaqoji təcrübəyə başlayan IV kurs tələbələri ilə görüş keçirilib. Tədbiri giriş sözü ilə açan BSU-nun tədris işləri üzrə prorektoru, professor Telman Cəfərov tələbələrə istehsalat və pedaqoji təcrübə müddətində universitetin adını daim uca tutmağı, intizamlı, işə münasibətdə məsuliyyətli olmağı tövsiyə edib.**







Prorektor əvvəlki illərin təcrübəsindən çıxış edərək çox vaxt məzunların istehsalat və pedaqoji təcrübə keçdikləri müəssisələrdə işlə təmin olunduqlarını, həmin təşkilatlarda karyera qurmağa başladıqlarını və bu gün cəmiyyətdə nüfuz sahibi olduqlarını diqqətə çatdırıb. O bildirib ki, 2019-cu ildə BSU-dan fakültələr üzrə ümumilikdə 555 tələbə 32 dövlət müəssisəsində, 32 orta məktəbdə istehsalat və pedaqoji təcrübə keçəcək. Orta təhsil məktəbləri sırasında Bakıda yerləşən məktəblərlə yanaşı, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kənd orta məktəbinin də olduğunu diqqətə çatdıran professor Telman Cəfərov qeyd edib ki, bu məktəbə BSU-nun 5 vətənpərvər tələbəsi könüllü olaraq yollanacaq. Prorektor pedaqoji və istehsalat təcrübəsi qaydalarının Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci ildə qəbul etdiyi “Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi”nin təsdiq edilməsi barədə qərarına uyğun olaraq tətbiq olunduğunu vurğulayıb.

Tədbirin davamında fakültə dekanlarının çıxışları dinlənilib. Beynəlxalq münasibətlər və regionşünaslıq fakültəsinin dekanı, dosent Şirinbəy Əliyev çıxışında bildirib ki, dekanlıq tərəfindən tələbələrin istehsalat təcrübəsi keçəcəyi müəssisələrlə bağlı siyahı tədris ilinin əvvəlindən hazırlanıb, siyahıya daxil olan 20-yə yaxın müəssisə ilə Əsasnaməyə uyğun müqavilə bağlanıb. O qeyd edib ki, beynəlxalq münasibətlər və regionşünaslıq fakültəsindən ümumilikdə 94 tələbə bu il istehsalat təcrübəsinə yollanacaq.

Tərcümə fakültəsinin dekanı, professor Fidan Qurbanova bildirib ki, qaydalara uyğun olaraq tərcümə fakültəsinin tələbələrindən 88 tələbə təcrübəyə gedir, 6 tələbə isə müəyyən olunmuş qaydalardan asılı olaraq təcrübəyə buraxılmır. F.Qurbanova qeyd edib ki, tələbələrin bu il təcrübə keçmələri üçün hazırlanan dövlət müəssisələrinin sırasında Ekologiya və Təbii Sərvətlər Nazirliyi, AMEA-nın Folklor İnstitutu, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, “Şəms” Tərcümə Xidmətləri Mərkəzi, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, Əqli Mülkiyyət Agentliyi, “ASAN xidmət”, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Nəsimi və Nizami rayon icra hakimiyyətləri var.

Filologiya və xarici dil müəllimliyi fakültəsinin dekanı, dosent Gültəkin Əliyeva fakültə üzrə ümumilikdə 89 tələbənin pedaqoji, 37 tələbənin isə istehsalat təcrübəsinə gedəcəyini deyib. Dekan bildirib ki, pedaqoji təcrübə keçmək üçün müəyyənləşdirilən müəssisələrin sırasına BSU-nun nəzdindəki Məktəb-Lisey Kompleksi də daxildir. Onun sözlərinə görə, rus, ingilis, alman, fransız dilləri üzrə təhsil alan tələbələrdən bir qrupu həmçinin BSU-da fəaliyyət göstərən müəyyən şöbələrdə istehsalat təcrübəsi keçəcəklər.

Azərbaycan filologiyası və jurnalistika fakültəsinin dekanı, professor Eldar Piriyev qeyd edib ki, təcrübəyə yollanan 108 tələbədən 19-u istehsalat təcrübəsinə gedəcək. Tələbələrin təcrübə keçəcəkləri müəssisələrdə nizam-intizam qaydalarına ciddi əməl etmələrinin vacibliyindən danışan E.Piriyev onlara uğurlar arzulayıb.

Pedaqoji fakültənin dekanı, professor Flora Naciyeva çıxışında bildirib ki, ilk dəfə olaraq bu il Təhsildə Sosial-Psixoloji Xidmət (TSPX) ixtisası üzrə təhsil alan tələbələr məktəblərə istehsalat təcrübəsinə yollanacaqlar. O, təcrübə üçün Pedaqogika və psixologiya kafedrası tərəfindən xüsusi vəsaitin hazırlandığını deyib. F.Naciyeva fakültədən ümumilikdə 135 tələbənin pedaqoji və istehsalat təcrübəsinə gedəcəyini diqqətə çatdırıb.

BSU-nun SABAH mərkəzinin rəhbəri Leyla Hüseynova SABAH qruplarında təhsil alan tələbələrin universitetin nəzdindəki Məktəb-Lisey Kompleksində və 164 saylı orta məktəbdə təcrübə keçəcəklərini qeyd edib. L.Hüseynova SABAH qruplarında aparılan müasir təlim-tədris metodlarının tələbələr tərəfindən təcrübə zamanı tətbiq ediləcəyini bildirib.

BSU-nun Təcrübə və məzunların karyera inkişafı şöbəsinin müdiri Yaşar Alxasov tələbələrin Əsasnaməyə uyğun olaraq 14 həftə müddətində beş günlük iş rejimi ilə təcrübə keçəcəklərini vurğulayıb. Təcrübə üçün lazım olan sənədləri sadalayan Y.Alxasov 24 may tarixinə qədər sənədləşmə işlərinin aparılacağını, 31 may tarixində isə Təcrübə və məzunların karyera inkişafı şöbəsi, Monitorinq və qiymətləndirmə şöbəsi, o cümlədən müəllimlərin iştirakı ilə sənədlərin qəbul olunacağını diqqətə çatdırıb. Təcrübə müddətində hər bir tələbənin topladığı balın komissiya tərəfindən dəqiq yoxlanacağını deyən Yaşar Alxasov tələbələrə uğurlar arzulayıb.

Tədbirin sonunda müəllim və tələbələri maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, BSU tələbələrinin əksəriyyəti artıq fevralın 18-dən etibarən istehsalat və pedaqoji təcrübəyə başlayıblar.

**Nüsrət Məmmədov,**
***“İki sahil”***

# Ermənistanın yeni hakimiyyəti fonunda dəyişməyən mahiyyəti...

**"Ermənistanda hələ də yuxarı vəzifələrə təyinat tanışlıq sistemi ilə həyata keçirilir. Ermənistanın baş nazirinin komandasında "kadr aclığı" hökm sürür". Bu barədə jurnalistlərlə görüşdə Ermənistanın milli təhlükəsizlik nazirinin sabiq müavini Qurgen Yegiazaryan bildirib.**



İşğalçı ölkənin "armenianreport.com" saytında işıq üzü görən yazıda Ermənistandakı siyasi xaosun hələ də davam etdiyi qeyd olunub. Q.Yegiazaryan açıqlamasında baş nazirin ünvanına sərt mesaj yollamağı da unutmayıb: "Bununla yanaşı, Paşinyan başa düşməlidir ki, hər şey Serj Sarkisyanla olduğu kimi bumeranq tək geri qayıdacaq".

Ermənistandakı mart hadisələri ilə bağlı da fikrini açıqlayan Yegiazaryan hakimiyyəti ittiham edib: "Əgər Paşinyan mart hadisələri haqqında cinayət işi açıldığını və məsələnin öz həllini tapdığını söyləyirsə, onda niyə yüzlərlə günahsız insanı həbsə atan Aqvan Ovsepyan hələ də azadlıqdadır?"

Görünür, Yegiazaryanın bununla da ürəyi soyumayıb işğalçı dövlətinin səriştəsiz baş nazirini "divara qısnamağa" davam edib: "Ölkədə olan problemləri həll etmək əvəzinə baş nazir Mixail Bulqakovun "Yoxsulluq beyindədir" tezisini təkrarlayır. Aydın məsələdir, bununla baş nazir məsuliyyətdən yaxasını kənara çəkmək istəyir. Hər şeydən öncə kəndlilərə əlverişli maliyyə imkanlarını təmin etməklə bank sistemində əsaslı islahatlar aparılmalıdır. Əlavə olaraq, böyük zavodlar və heç olmasa, İrəvan şəhərində işçi sinfi yaratmaq lazımdır".

Müxalifətçi, həmçinin bəyan edib ki, Nikol Paşinyanın Hayk adlı yaxınlarından biri onu təhdid etməyə çalışıb və bunun üçün üzr istəməli olacaq.

Təcavüzkar ölkənin keçmiş səlahiyyətlisi və hazırkı müxalifətçisi əslində bu yığcam açıqlaması ilə Ermənistandakı bütün mövcud acınacaqlı durumu ortaya qoyub. Belə ki, ilk abzasda biz Ermənistanda yeni hökumətin tam formalaşmadığı, buradakı kadr çatışmazlığı haqqında kifayət qədər dolğun məlumat alırıq. Ən əsası isə, Ermənistanın hazırkı baş naziri Nikol Paşinyanın özündən əvvəlki sələflərindən heç də fərqlənmədiyinin şahidi oluruq. Sən demə, meydanda düzlükdən, şəffaflıqdan, demokratiyadan dəm vuran Paşinyan hökuməti də "tanışlıq sistemi" vasitəsilə öz kabinetini formalaşdırır. Bunu biz demirik, işğalçı ölkənin vətəndaşı özü etiraf edir.

Yegiazaryanın Paşinyana bumerangı və Serj Sarkisyanı xatırlatması da gəlişigözəl bir yadasalma deyil. Bununla da o, əslində Ermənistanda sistemin yox, sadəcə fərdlərin dəyişdiyini, işğalçı ölkədə hər şeyin elə əvvəlki kimi qaldığını bildirib. Eyni zamanda, bir gün bumeranqın dönüb-dolanıb gəlib Paşinyanı hədəfə alacağını, dolayısı ilə onun da Sarkisyanın yolu ilə "yollanacağını" diqqətə çatdırıb.

Ermənistandakı mart hadisələri haqqında da əslində çox lazımlı bir qeydi etməklə, sabiq nazir müavini bu cinayət işinə də hökumətin "özünə sərf edən" tərəfdən yanaşdığını, bu məsələdə də ikili standartlar həyata keçirdiyini dilə gətirib. Bu açıqlamada biz, həmçinin Paşinyanın meydanda verdiyi vədlərə və populist çıxışlara baxmayaraq, Ermənistanda sosial problemlərin həll olunmadığını, işsizliyin daha da artdığını da aydınca müşahidə edirik.

Yegiazaryan Ermənistanda demək olar ki, bütün sferaları əhatə edən bərbad durum haqqında dediklərinə son məntiqi nöqtəni də qoyub. Belə ki, demokratiya barəsində danışanda ağzına "çullu dovşan yerləşməyən" Paşinyan da eynən işğalçı xunta rejiminin özündən əvvəlki nümayəndələri kimi Ermənistanda hələ də "qoçuluq rejimi"ni "dipdiri saxlamaq"da israrlıdır. Bunu onun yaxınlarından birinin hazırda hakimiyyətə müxalif cəbhədə dayanan Yegiazaryanı təhdid etməsindən açıqca görmək mümkündür.

Bütün bunlar təsdiq edir ki, Ermənistanda dəyişən sadəcə vizual görüntüdür, əslində işğalçı, korrupsioner, səfil mahiyyət dəyişməyib, eynən əvvəlki kimi qalmaqdadır.

✍ **Sevinc Abdullayeva, *"İki sahil"***

## Hikmət Babaoğlu:

# Azərbaycanda müxalifətçilik milli maraqlarımıza zərbə vuran alət kimi çıxış edir

**Hər bir cəmiyyətin siyasi sistemi onun maraqlarını təmin etmək üçün funksional və institusional qurumlar yaratmaqla bunu milli məqsədlərə nail olmanın mexanizmi kimi müəyyənləşdirir. Beləliklə, dövlət dediyimiz sosial təsisat siyasi sistem tərəfindən idarə olunan xüsusi aparata çevrilir. Bu prosesə cəmiyyəti təşkil edən ən müxtəlif siyasi və ideoloji dünyagörüşünün daşıyıcılarının cəlb edilməsi də əslində cəmiyyətin hər bir üzvünü prosesin iştirakçısına çevirməklə onun potensialından milli maraqların həyata keçirilməsində istifadə etmək məqsədi daşıyır.**

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu bildirib. Deputat qeyd edib ki, hazırkı mürəkkəb tarixi mərhələdə milli dövlətlərin öz maraqlarını müdafiə etməsi çoxsaylı təhdidlərlə üzləşir və bu, hər gün bir az daha çətinləşir. Çünki tarixin amansız mübarizəsində hər xalq öz maraqlarını qorumalıdır və bu da gərgin rəqabət kontekstində baş tutur. Ona görə də qlobal aktorlar milli dövləti uzun və yorucu rəqabətdə taqətdən salmaq üçün onun öz daxili enerjisindən



özünə qarşı istifadə edir. Məsələn, ölkədaxili müxalifəti iqtidara qarşı qoymaqla hakimiyyəti zəiflədir və bunu öz maraqlarını təmin etmək üçün bir alətə çevirir.

Deputatın sözlərinə görə, Azərbaycanın həyata keçirdiyi müstəqil siyasət və aparılan islahatlar ölkəmizi daha da güclü etdiyi üçün bu, rəqiblərimizi ciddi şəkildə narahat edir. Son aylarda müxalifətin "fəallaşması" da məhz bu kontekstdə nəzərdən keçirilməli olan hadisədir. Əslində sağlam məntiq onu tələb edir ki, ölkənin inkişafı müxalifəti məmnun etsin, ancaq bizdə isə bunun tərsi baş verir. Əldə edilən uğurlar müxalif düşərgəni qıcıqlandırır. Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, professor Əli Həsənov "Müxalifətçilik missiyası və Azərbaycanın maraqları" adlı məqaləsində məhz bu problemi analiz edərək ən son siyasi tariximizdə baş verən hadisələr kontekstində belə yanaşmanın səbəblərini çoxsaylı arqumentlərlə izah edir. Bəlli olur ki, Azərbaycanda müxalifətçilik bir çox hallarda milli məqsədlərə xidmət edən missiya deyil, tam əksinə, milli maraqlarımıza zərbə vuran alət kimi çıxış edir.

H.Babaoğlu əlavə edib ki, doğrudan da Əli Kərimli və onun kimi xüsusi missiya yerinə yetirən bir qrup marginalın fəaliyyəti xalqımızın maraqlarına hesablanmış siyasi fəaliyyətdən daha çox bizə qarşı olanların maraqlarının qorunması kimi qiymətləndirilə bilər. Diqqət etsək görəcəyik ki, bu müxalifətçilik uğurları qəbul etməyən, milli inkişafa qısqanclıqla yanaşan, xalqın yanında yox, əgər belə demək mümkündürsə, problemlərin yanında olan müxalifətçilikdir. Ona görə də bu, siyasi aktiv fərdlər tərəfindən dəstəklənməyən, sosial-siyasi elektoratı olmayan müxalifətçilikdir. Əgər belə olmasaydı bütün dünyanın təqdir etdiyi inkişafımızı və ölkəmizdə aparılan çoxşaxəli islahatları tənqid, yox təqdir edərdilər. Çünki milli maraqlarımız bunu tələb edir. Bu kimi məqamları Əli Həsənov olduqca doğru analiz edərək Azərbaycanda milli maraqlarımız baxımından Prezident İlham Əliyevin siyasətinə alternativ siyasətin olmadığı qənaətinə gəlir və bu məsələdə tamamilə haqlıdır.

# YAP Pirallahı rayon təşkilatı hesabat verdi





**Bakı şəhərinin yeni yaranmış Pirallahı rayonunda Yeni Azərbaycan Partiyasının (YAP) Pirallahı rayon təşkilatının yaranması zərurəti meydana çıxdı. 17 iyul 2013-cü il tarixində Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının təsis konfransı keçirilib. Yarandığı gündən rayonumuzun inkişafında və ictimai həyatında Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının mühüm rolu olub.**

Bu fikirlər fevralın 19-da Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının 2018-ci ilin yekunlarına və qarşıda duran vəzifələrə dair hesabat yığıncağında səsləndirilib. Partiyanın Pirallahı rayon təşkilatı aparatının əməkdaşları, İdarə Heyəti, Şura üzvləri və ərazi ilk partiya təşkilatlarının sədrlərinin iştirakı ilə keçirilən yığıncaqda YAP Pirallahı rayon təşkilatının sədri Hikmət Şikarov 2018-ci ildə görülən işlərdən danışaraq qeyd edib ki, hesabat dövrü ərzində təşkilatın fəaliyyəti məhsuldar olub və bir sıra uğurlu nəticələrlə yadda qalıb. 11 aprel 2018-ci il prezident seçkilərində Yeni Azərbaycan Partiyasından namizədliyi irəli sürülmüş cənab İlham Əliyevin seçkiqabağı təbliğat-təşviqat kampaniyası zamanı rayon təşkilatı üzvlərinin yüksək fəallığı bir daha yığıncaq iştirakçılarının diqqətinə çatdırılıb. 2018-ci ilin aprel-may aylarında ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyi və Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi ilə bağlı keçirilən silsilə tədbirlər barədə məlumat verilib.

Yığıncaq iştirakçıları 2018-ci ildə Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının fəaliyyətini qənaətbəxş hesab ediblər. YAP Pirallahı rayon təşkilatının İdarə Heyətinin üzvləri Əli Kərimov, Ələddin Muxtarov, Sevda Alxasova, Mirdaməd İmanov, Fazil Məhəmmədov, Yaqub Hüseynov, Bəxtiyar Balakişiyev və başqaları çıxış edərək rayonun ictimai-siyasi həyatında Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının rolunu qeyd ediblər.

2018-ci ildə partiya sıralarına qəbul edilmiş yeni üzvlərlə bağlı çıxışı zamanı Hikmət Şikarov fəallığı ilə seçilən ərazi ilk partiya təşkilatlarının adlarını qeyd edərək, onlara gələcək fəaliyyətlərində də uğurlar arzulayıb. Bu gün partiya sıralarına perspektivli, gənc kadrların cəlb olunmasına üstünlük verilməsini ərazi ilk partiya təşkilatlarının sədrlərinin diqqətinə çatdırıb.

Tədbir YAP sıralarına yeni qəbul edilmiş üzvlərə partiyanın üzvlük vəsiqələrinin təqdim edilməsi və 2018-ci ildə Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının ictimai-siyasi həyatında fəal iştirak etmiş partiya fəallarının Fəxri fərmanla təltif olunması ilə başa çatıb.

✍ **Orxan Vahidoğlu, *"İki sahil"***

# Dövlət, atribut, ölkənin dəyərli insanları haqqında edilən bütün qeyri-etik, cinayət tərkibli çıxışlar anındaca yasaqlanmalıdır

*Milli Məclisin deputatı Elşən Musayevin www.yap.org.az saytına müsahibəsi*



***-Elşən müəllim, Azərbaycanın dinamik inkişafı və beynəlxalq nüfuzunun mütəmadi olaraq artması bəzi dairələr tərəfindən qısqanclıq və narahatlıqla qarşılanır. Həmin anti-Azərbaycan dairələr ölkəmizə qarşı qarayaxma kampaniyası aparır, ikili standartlara əsaslanan qərəzli yanaşma nümayiş etdirirlər. Bununla bağlı fikirləriniz nədən ibarətdir?***

-Əvvəla, hər yerdə söylədiyim fikri sizin saytınız vasitəsilə bir daha bəyan edim: Azərbaycanın uğurları, cənab Prezidentin müdrik siyasəti nəticəsində reallaşan, nəzərəçarpan inkişaf yalnız və yalnız özümüzə, Azərbaycan vətəndaşına sərf edən məsələdir. Yəni kənardan kimsənin marağında deyil ki, biz bu qədər inkişaf edək, böyük görünək, güclü olaq. Sadəcə, müəyyən qisim kənarda durur, seyrçidir, səsini çıxarmır, bəziləri isə açıq qısqanclıq edir. Belə olan halda da anti-Azərbaycan qüvvələri müəyyən məqamlarda və məkanlarda yaranır, formalaşır, bəlli istiqamətlərdən dövriyyəyə buraxılır. İlk dəfədirmi? - Xeyr. Bu qüvvələr hər zaman olub. Ədalətsizlik də olub, qarayaxma da olub, ikili-üçlü standartlar da. Bəzən hətta bu standartlar iyirmili-otuzluya çevrilir.

Xaricdə xüsusi qüvvələr var ki, onlar açıq bir formada haqqı nahaqa qurban verərək ölkəmizə qarşı müxtəlif üsul-formatlarla hücuma keçirlər. Zaman-zaman. Təbii, həmin hücumlar hər dəfəsində də dəf olunur, bələləri heç bir qara niyyəti məhz Azərbaycanda həyata keçirə bilmirlər. Səbəb də sadədir: harada xalq və Prezident birliyi var, həmin münasibətlərin arasına kimsə girə bilmir. Çünki girmək mümkün deyil. Cənab İlham Əliyev ləyaqətli liderdir, O, Azərbaycanın bəxtidir, şansıdır. Belə bir şəxsiyyətin rəhbər olduğu ölkədə heç bir məkrli niyyəti, qara ideologiyanı, absurd ssenariləri həyata keçirmək mümkün deyil. Onun prinsipiallığı, yürütdüyü mükəmməl daxili və xarici siyasət bütün məqamlarda Azərbaycanı ancaq işıqlı gələcəyə aparıb, bundan sonra da aparacaq. O, öz vətəndaşının, xalqının qarantı olmaq missiyasını ən mükəmməl şəkildə daşıyan rəhbərdir. Prezident İlham Əliyevin yanında olmaq, Onu dəstəkləmək isə artıq bizlər üçün bir tək seçici missiyası deyil, həm də şərəf məsələsidir.

***-Anti-Azərbaycan dairələrin sifarişlərini yerinə yetirən antimilli ünsürlər, yəni ölkəmizdəki "beşinci kolon" nümayəndələri də Azərbaycanda sabitliyin pozulmasına çalışır, mitinq adı altında təxribatçı hərəkətlərə yol verirlər. Buna münasibətiniz necədir?***

-Bu fakt onu ifadə edir ki, azərbaycanlı olmağına baxmayaraq özünü bizdən zənn etməyən, xalqı da Vətəni də ən xırda fürsətləri olsa hərraca çıxarmağa hazır olan qüvvələr var. Bələləri üçün Vətən təəssübkeşliyi deyilən anlayış yoxdur. Həmin qisim bütün siyasi fəaliyyətləri boyunca kiməsə işləyib, sifariş yerinə yetiriblər. Onlara "5-ci kolon" da deyirik, "antimilli ünsür" də, "sapı özümüzdən olan baltalar" da. Amma bələlərinin əsl adı bilirsinizmi nədir? - Vətən xaini. Bax bu ad onlara daha gözəl yaraşır. Əksəriyyəti xaricdən oturub elə xaricdən də idarə olunanlardır. 5 qəpik qranta görə vicdanlarını, namuslarını, şəxsiyyətlərini qoyublar ortalığa. Bəsirət gözləri qapalı olan bu zavallılar fərqində belə deyillər ki, günbəgün hansı nifrəti qazanırlar, kənardan özlərinə qarşı necə ikrah yaradırlar. Buradakı nümayəndələri, fəaliyyətləri də də həmin ağılda və həmin qəbildə - eyni təfəkkür, eyni mexanizm, eyni xislət. Bekar olan kimi mitinq keçirirlər. Anlamırlar ki, mitinq - insanları cinayətə, qeyri-etik çağırışlara, destruktiv fəaliyyətə yönəltməmelidir. Mitinq - anarxiya, xaos elementi deyil. Mitinq - sivil formada ifadə azadlığının, fikri cəmiyyətə çatdırmaq mexanizminin bir qoludur. Amma bunlar mitinqlərdən, aksiyalardan da öz təyinatı üzrə istifadə etmirlər, edə bilmirlər. Çünki dediyim kimi: bu, zərurətdən deyil, bekarçılıqdan doğan məsələdir.

***-Bu gün sosial şəbəkələrdə bəzi qruplar tərəfindən Azərbaycan xalqına və dövlətinə qarşı təhqiramiz, radikal çağırışların səsləndirilməsi cəmiyyətdə böyük narazılıq doğurur. Bu cür hallara qarşı qanunvericilik səviyyəsində hansı addımlar atılmalıdır?***

-Mən məhz bu məsələ ilə bağlı Milli Məclisin plenar iclasında da, media üzərindən də konkret təkliflərlə çıxış etmişəm. Belə ünsürlər hansısa formada islah olunmalıdır. Bir vətəndaş kimi mənim arzum budur. Yolu nədir? Lap əvvəl birəbir hamısına cinayət işi qaldırılmalı, qiyabi də olsa istintaq aparılmalıdır. Daha sonra ekstradisiya müqavilələri incələnməlidir ki, kimlə hansı müqavilə şərtlərimiz var və həmin şərtlərdən çıxış edərək neyləmək olar. Bax məsələn, o yaramaz Vidadinin məskunlaşdığı ölkə ilə ekstradisiya müqaviləmiz olmasa da, Konvensiya şərtlərindəki ümumi razılaşmaya əsasən, üstəlik qanunvericilik əsasında həmin cinayətkarı rahatca götürmək olar. Təbii, qarşı tərəf, onu verəcək ölkə burada başqa maraqlar güdməsə.

İkincisi, dəfələrlə qeyd etmişəm, bir daha vurğulayıram: Dövlət, atribut, ölkənin dəyərli insanları haqqında edilən bütün qeyri-etik, cinayət tərkibli çıxışlar anındaca yasaqlanmalıdır. Bunun üçün daha ciddi və fundamental qanunvericilik əsaslar yaratmalıyıq. Çünki zaman bunu tələb edir. Belə ünsürlərin video-bloqlarının, təhrikçi çıxışlarının, sosial şəbəkələrdəki hesablarının Azərbaycana çıxışı əngəllənməlidir. Kimsə internet məkanında bu iyrənc məxluqların iyrənc fikirləri ilə qarşı-qarşıya gəlməməlidir. Bizim bu fikirlərimizi bəzən kontekstdən çıxarıb internetin, sosial şəbəkələrin yasaqlanması ideyası kimi də təqdim edirlər. Xeyr, belə deyil. Əksinə, internetin gücü, resursları bir az da artsın, amma cinayətkarların həmin imkandan bəhrələnə bilməməsi şərti ilə! Tələbimiz və arzumuz məhz budur. Heç şübhəsiz, həmin antimilli ünsürlər bir gün mütləq hüquqa, qanuna, istintaqa, məhkəmələrə təslim ediləcək. Amma həmin zamanı, müddəti oturub sakitcə gözləməməliyik. İslahın bir çox vasitələri var. Həmin vasitələr təxirəsalınmaz formada düşünülməli, tapılmalı və icra edilməlidir.

# Azərbaycan və çeçen xalqlarının dostluq və qardaşlığını kimsə poza bilməz

## Ermənilərin ölkəmizə qarşı növbəti təxribatı iflasa uğradı



**Çox təəssüf ki, bəzi antiazərbaycan qüvvələr Rusiyada soydaşlarımıza qarşı yeni bir təxribat törətməyə cəhd etdilər. Belə ki, onlar Moskvanın "Neolit" restoranında çeçen əsilli bir neçə nəfərin azərbaycanlılarla məişət zəminində baş verən davasını millətlərarası davaya çevirmək istədilər.**

Məhz indi məlum olub ki, bu qarşıdurmanın təşkilatçısı ermənidir. Belə ki, ötən gün Moskvada fəaliyyət göstərən İnformasiya Təşəbbüsləri Mərkəzinin rəhbəri Fuad Abbasov apardığı jurnalist araşdırmasından sonra bu cür ciddi bəyanatla çıxış edib. O, özünün Rusiya hüquq mühafizə orqanlarına ünvanlanan video-müraciətində münaqişənin ilk günündə çeçenlərin hansısa azərbaycanlını axtardığını bildirib: "Onlar Votsapda və digər sosial şəbəkələrdə bir-birilərinə həmin azərbaycanlının fotosunu göndəriblər. Çeçenlərin fikrincə, məhz həmin şəxs günahkar olub və onu cəzalandırmaq lazımdır. Bununla belə, azərbaycanlının adı qeyd olunmayıb".

Daha sonra isə jurnalist çeçenlərin axtardıları həmin "azərbaycanlı"nın pasportunun şəklini göstərir. Məlum olur ki, bütün baş verənlərin günahkarı, çeçenlərin axtardıqları şəxs özünü azərbaycanlı kimi qələmə verən Ermənistan vətəndaşı, 1993-cü il təvəllüdlü Harnik Aramoviç Vardanyandır.

Bu bir daha göstərir ki, ermənilər Azərbaycan dövlətinin MDB məkanında artan gücünü, ölkəmizin Rusiya ilə yüksələn siyasi, iqtisadi və mədəni əlaqələrini həzm edə bilməyərək orada yaşayan soydaşlarımıza və ümumilikdə dövlətimizə qarşı təxribatlarını davam etdirməkdədirlər. Məhz Azərbaycan dövlətinin və onun rəhbərinin məsələyə ciddi münasibətinin nəticəsi olaraq bu gün Rusiya hüquq mühafizə orqanları da sözügedən təxribatın iştirakçıları barədə axtarışlara başlayıblar və artıq saxlanılan da var. Belə ki, Rusiya hüquq mühafizə orqanlarından TASS-a verilən məlumata görə, təxribatın hazırlamasında şübhəli bilinən məşhur bloqer Əlibəy Mirzəxanov həbs edilib. "Novoe delo" portalı isə xəbər verir ki, ona qarşı Cinayət Məcəlləsinin iki maddəsi üzrə cinayət işi açılıb. Bildirilir ki, Ə.Mirzəxanov sözügedən kafeyə 4 nəfərlə, əllərində bıçaq və travmatik silahla basqın ediblər.

Daha bir önəmli məsələ isə Çeçenistan rəhbəri Ramzan Kadırovun bu məsələyə özünəməxsus şəkildə pozitiv münasibət bildirməsi oldu. O, sosial şəbəkələrdə azərbaycanlı dostları ilə şəkillərini paylaşaraq hər iki xalqa mesaj verdi ki, dost və qardaş xalqların arasına nifaq toxumu səpmək mümkün deyildir. Necə deyərlər, dini, coğrafiyası bir olan iki xalqın min illər boyu mövcud olmuş dostluq münasibətləri sarsılmazdır, əbədidir.

Bu münaqişəyə ilk reaksiya verən Azərbaycan hakimiyyətinin sözçüsü Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov məsələyə konkret münasibət bildirdi. Onun bəyanatında bildirilir ki, Azərbaycan hökuməti insidenti adi məişət zəminində baş vermiş kriminal hadisə kimi dəyərləndirir və hesab edir ki, belə hallar Azərbaycan və çeçen xalqları arasında tarixən mövcud olan dostluq və qardaşlıq əlaqələrinə xələl gətirə bilməz.

Bu bir faktdır ki, Azərbaycan və çeçen xalqlarının tarixi dostluq əlaqələri imkan verib ki, onlar ən çətin məqamlarda bir-birlərinə kömək və yardım etsinlər. İki müsəlman xalqın bir-birinin milli adət-ənənəsinə, tarixinə hörmətlə yanaşmasının nəticəsidir ki, bu gün çeçenlərlə azərbaycanlıların dostluq münasibətləri ancaq genişlənir.

Çeçenistanın mətbuat və informasiya naziri Cambulat Umarov da hadisəyə münasibət bildirərkən deyib ki, hər hansı bir cinayət hadisəsini, xuliqanlığı sosial şəbəkələrdə hansı formada şərh edilməsindən asılı olmayaraq yaymaq istəyənlər çeçen və Azərbaycan xalqlarının əlaqələrini, dostluq və qardaşlıq münasibətlərini poza bilməzlər. Bu, qeyri-mümkündür. Bu əlaqələr yüzilliklərə söykənir.

Azərbaycanlı ziyalılar da bu münaqişənin iki qardaş və dost xalqa qarşı məqsədli şəkildə törədilən təxribat olduğunu bildiriblər. Onlar çeçen dostları ilə danışdıqlarını və onların da bu hadisəni pislədiklərini ifadə ediblər. Belə ki, Azərbaycan Güləş Federasiyasının vitse-prezidenti Firdovsi Umudov bu hadisəni təxribat hesab edərək bildirib ki, son günlər Rusiyada bəzi qüvvələrin təxribatı nəticəsində həmvətənlərimizlə dost çeçen xalqının nümayəndələri arasında xoşagəlməz hallar baş verib və bu, xeyli narahatlıq doğurur: "Yüzilliklər boyu dost və qardaş münasibətində olan xalqlar arasında bu cür hallar qətiyyən yolverilməzdir. Bu gün ölkəmizdə çeçen xalqının xeyli sayda nümayəndəsi yaşayır, sərbəst güləş üzrə yığma komandamızın böyük məşqçisi milliyyətcə çeçen olan Zəlimxan Hüseynovdur. Mütəmadi olaraq Çeçenistan idmançıları ilə birgə təlim-məşq toplanışlarında iştirak etmişik və aramızda heç zaman fikir ayrılığı olmayıb. Azərbaycan həmişə çeçen xalqına öz kömək əlini uzadıb, yardımını əsirgəməyib".

Sərbəst güləş üzrə Azərbaycan yığmasının böyük məşqçisi, çeçen əsilli Zəlimxan Hüseynov da iki qardaş xalqı bu iyrənc təxribata uymamağa çağırıb.

Çeçenistanın keçmiş rabitə naziri Səid Emin İbrahimov da çeçen və Azərbaycan xalqlarının müdriklik göstərmələrini və iki qardaş xalqın dostluğuna yönəlik təxribatçılara sərt cavab vermələrini istəyib. Onun qənaətincə, bu münaqişə Rusiyadakı bəzi qüvvələr tərəfindən məqsədli şəkildə hazırlanıb: "Mən Azərbaycan xalqını çox sevirəm. Mühariбə vaxtı taleyin hökmü ilə Azərbaycanda idim. Biz azərbaycanlıların çeçenləri necə qarşıladığını və bizə görə necə həyəcan keçirdiklərini görürdük. Çeçenlər çox alicənab xalqdır və xeyirxahlığı unutmurlar"

Qeyd edək ki, ötən iki gündə Moskvadakı çeçen və azərbaycanlı iş adamları, ziyalılar da bir araya gələrək dostluq və qardaşlıq münasibətlərindən danışaraq, sözügedən təxribatı sərt şəkildə pisləyiblər. Onlar bir masa arxasında oturaraq iki qardaş və dost xalqın isti münasibətlərinin bundan sonra da davam edəcəyini bildiriblər.

Qürurla demək lazımdır ki, iki dost və qardaş xalqın arasına nifaq toxumu səpmək istəyənlərin niyyətləri puç oldu. Çünki həm Azərbaycan dövlətinin məsələyə dərhal və düzgün mövqe bildirməsi, həm də hər iki xalqın ziyalılarının müdriklik göstərərək eyni mövqedən çıxış etmələri bir daha göstərdi ki, Azərbaycan xalqı ilə çeçen xalqı tarixin belə sınaqlarından mətinliklə çıxmağı bacarıblar.

**Elçin Zaman,**
***"İki sahil"***

## Venesuelanın hasilatı artırmaq üçün vəsaiti yoxdur



Venesuelanın hazırda neft hasilatını yüksəltmək və ixrac mallarının yönləndirilməsi üçün kifayət qədər resursu yoxdur. Venesuelanın Mərkəzi Bankının məsləhətçisi, ölkənin Rusiyada keçmiş səfiri olmuş Karlos Mendoza Pottela TASS agentliyinə müsahibəsində belə deyib.

"Hazırda xam neft hasilatını artırmaq üçün nə qədər vəsaitə ehtiyac olduğunu dəqiq demək çətindir. Hasilat göstəricilərinin bərpası üçün hələ bir neçə il vaxt lazımdır, çünki dövlətin bugünkü maddi imkanları buna imkan vermir ",- deyə o bildirib.

"Rəsmi mənbələrdə göstərilən məlumata görə, Venesuela neftinin əsas alıcısı ABŞ-dır. ABŞ hazırda daşıma xərclərinin daha baha başa gəlməsinə baxmayaraq, bu boşluğu doldurmaq üçün digər potensial bazarlara - Çin və Hindistana üz tutmağı nəzərdə tutur. Lakin Səudiyyə Ərəbistanı, Rusiya və Azərbaycan da güclü rəqiblərdir",-deyə Karlos Mendoza şərh verib.

## Küveyt neftinin qiyməti 10 sent aşağı düşüb



Küveyt Neft Korporasiyasının verdiyi məlumata görə, bu ölkənin neftinin qiyməti keçən həftənin cümə günü ilə müqayisədə 10 sent aşağı düşərək 1 barrelinin qiyməti 64.72 dollar təşkil edib.

Küveyt xəbər agentliyi dünyada neftin qiymətinin artdığı bir vaxtda Küveyt neftinin aşağı düşməsini neft yataqlarındakı hasilatın müvəqqəti olaraq dayandırılması və təchizatın sayında azalmanın müşahidə olunması ilə əlaqələndirib.

"İki sahil" "menafn.com" saytına istinadən xəbər verir ki, "Brent" və "Qərbi Texas" markalı neftlərin qiymətində artım müşahidə olunub. Belə ki, "Brent" markalı neftin 1 barreli 1.86 dollar artaraq 66.25 dollara, "Qərbi Texas" markalı neftin 1 barreli isə 1.18 dollar artaraq 55.59 dollara çatıb.

## Sızma yanğına səbəb olub



Birləşmiş Ştatların Allegany əyalətindəki neft quyusunda baş verən sızma zamanı 150 qalon neft sızaraq ətrafa yayılıb və Flatstone Road və Chipmonk Road yollarının kəsişməsində yanğına səbəb olub. Əyalətin yanğınsöndürmə departamentinin nümayəndələri yanğını səhər saat 5.35-də müəyyən ediblər. "Incident Response and Mitigation (IRM)" Xidmətinin nümayəndələri tərəfindən əyalət sızmadan təmizlənib.

"İki sahil" "tapinto.net" saytına istinadən xəbər verir ki, sızan quyunun operatorunun "Vertical Energy Inc." şirkəti olduğu bildirilir.

# Təhlükəsiz və sabitliyin kökündə xalq-iqtidar vəhdəti dayanır

**Dövlət o zaman qüdrətli olur ki, ictimai və dövlət maraqları vətəndaşlar tərəfindən yüksək səviyyədə qorunur, müdafiə edilir. Bunun əksi baş verən ölkələrdə isə İraqda, Liviyada, Misirdə, Yəməndə, Suriyada olduğu kimi, yad müdaxilələr nəticəsində dövlətin dayaqları sarsılır, sabitlik pozulur. Nəticədə vətəndaş müharibəsi baş verir, dövlətin süqutu üçün zəmin yaranır. Hansı ki, ictimai və dövlət maraqlarının xalq tərəfindən qorunduğu ölkəmizdə Türkiyə, Rusiyada olduğu kimi, xarici müdaxilələr nəinki işə yaramır, əksinə dövlətin qüdrəti nəzərəçarpacaq qədər artır.**

Azərbaycanda ictimai və dövlət maraqlarının xalq tərəfindən müdafiə edilməsinin nəticəsidir ki, nəzərəçarpan inkişafa nail olunub. Bu inkişafı həzm edə bilməyən antiazərbaycan qüvvələr bəzi azərbaycanlıların "xidmətlərindən" istifadə edərək daxili sabitliyi pozub, inkişafın qarşısını almağa çalışırlar. Onlar müxtəlif yollarla, saxta sənədlərlə guya ölkəmizdə represiya qurbanı olmuş, əslində isə Avropada rahat - işləmədən müftə pul alıb yaşamağı üstün tutan "dahilər"i məkirli əməllərinə alət edərək Azərbaycanda ictimai fikri çaşdırmağa çalışırlar. Amma, xalqımızın sayıqlığı və dövlətimizin başçısına olan yüksək etimadı qara qüvvələrin hədəflərinə çatmasına mane olur.

İctimai və dövlət maraqlarının müdafiəsində ölkə KİV-nin, daha doğrusu, jurnalistlərin də üzərinə böyük yük düşür. Azərbaycan mətbuatı media olaraq üzərinə düşən vəzifəni yüksək səviyyədə icra edir. Lakin bir çox həmkarımızın peşəkar fəaliyyətindən kənarda ictimai proseslərə, antimilli qüvvələrin söyüş kampaniyasına laqeyd yanaşırlar. Yeni Azərbaycan Partiyasının icra katibinin müavini Siyavuş Novruzov da Milli Məclisin tribunasından laqeyd jurnalistləri tənqid edərək bildirib ki, vətəndaşın aşağılanması, dövlət əleyhinə çağırışlar yolverilməzdir: "... Elə qəzet var ki, 10 işçisi mənzil alıb. Bütün mətbuat orqanlarının nümayəndələri də fikirlərini bildirməlidirlər. Azərbaycanda təhqirə, söyüşə yer yoxdur. Kim bu addımı atırsa, həmin mətbuat nümayəndələri onlara cavab verməlidirlər". Təəssüf ki, dövlətdən mənzil alan bəzi jurnalistlər sosial şəbəkədə S.Novruzovu hədəfə alaraq qınaq obyektinə çevirdilər.

**Məsələyə münasibət bildirən Mətbuat Şurasının (MŞ) İdarə Heyətinin üzvü, siyasi şərhçi Azər Həsrət dedi ki,** Siyavuş Novruzovun qaldırdığı məsələ onu da narahat edir: "Bu məsələ uzun müddətdir məni də narahat edir. Düzdür, biz başa düşürük ki, dövlət jurnalistlərə mənzil verirsə, və ya öz vətəndaşlarına hansısa lütfü göstərirsə, bunu minnətlə etmir. Dövlətin elə bir məqsədi də yoxdur. Təəccüblüsü odur ki, daha çox fəal olanlara, etimad göstərilənlərə mənzillər verilib. Bu baxımdan da onlar, bu kimi məsələlərdə mənzil almayan jurnalistlərdən daha fəal olmalıdırlar".



MŞ rəsmisi qeyd etdi ki, burada söhbət hakimiyyəti dəstəkləməkdən getmir: "Azərbaycan dövlətinin mənafelərini müdafiə etməkdən söhbət gedir. Siyavuş Novruzov da məsələni bu yöndə dilə gətirib ki, yəni bu adamlar dövlətin lütfündən yararlanırlar, halal xoşları, bu kimi məsələlərdə də biganəlik göstərməsinlər. Düşünürəm ki, məsələyə bu prizmadan yanaşmaq daha doğru olardı".

A.Həsrət vurğuladı ki, Siyavuş Novruzovun narahatçılığını başa düşməliyik: "Təkcə jurnalistlər deyil, bütün sahələrdə çalışan insanlar Azərbaycan dövlətinin maraq və mənafelərinə toxunulduğu zaman biganəlik göstərməməlidirlər. Burada söhbət dövlətimizin aşağılanmasından, çamur atılmasından, Azərbaycanın beynəlxalq müstəvidə imicinin korlanması və mövqelərinin zəiflədilməsindən gedir. Belə məsələlərdə, əlbəttə ki, hər bir şəxs, xüsusən də fəallıqlarına görə mənzillə mükafatlandırılmış jurnalistlər öz sözlərini deməlidirlər. Əgər demirlərsə, bu artıq düşündürücüdür və hesab edirəm ki, Siyavuş müəllimi də narahat edən budur".

Ölkəmizin KİV-ində ictimai və dövlət maraqlarının müdafiəsinin hansı səviyyədə təmin edilməsi ilə bağlı sualı cavablandıran siyasi şərhçi dedi ki, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) qurulmasından sonrakı mərhələdə bu məsələdə ciddi irəliləyiş olub: "KİVDF yaradılandan sonra dövlət dəstəyini qəzetlərə yönləndirdi. Nəticədə faktiki olaraq dövlət maraqları ilə əlaqədar olan, lakin diqqətdən kənarda qalan bir çox məsələlər daha intensiv şəkildə gündəmə gətirilib. Eyni zamanda, xüsusi ilə ermənilərin Azərbaycana qarşı informasiya savaşında cavab verilməsi intensivləşib".

MŞ rəsmisi qeyd etdi ki, ümumiyyətlə, yaxşılarla yanaşı, yaxşı olmayan hallar da var: "Biz jurnalistlər də əl-ələ verib bu halların aradan qaldırılmasına çalışırıq. Əsas məsələ odur ki, Azərbaycan dövləti mətbuatın, jurnalistlərin sərbəst, müstəqil fəaliyyət göstərməsi üçün hər cür şərait yaradıb. Adamı yandıran da odur ki, Siyavuş müəllim də ondan qəzəblənir ki, bu qədər şərait yaradılmasına baxmayaraq bəzi jurnalistlərimiz ətrafda baş verənlərə biganə yanaşırlar".

**Politoloq Nəzakət Məmmədova isə hesab edir ki,** dövlətin gördüyü işləri yüksək qiymətləndirmək olar: Politoloq fikrini onunla əsaslandırır ki, demokratik sistemlərdə başlıca olaraq vətəndaş, cəmiyyət, dövlət əlaqələri belə yüksək səviyyədə olur: "Azərbaycan müstəqillik əldə etdikdən sonra vətəndaş məmnunluğunu təmin etmək üçün dövlət bir neçə mərhələdə islahatlar aparıb. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu islahatlar bir neçə mərhələdən ibarət olub. 1993-2003, 2003-2009 və 2009-2019-cu illəri əhatə edən genişmiqyaslı, çoxşaxəli islahatlar mərhələsi ölkəmizdə bütün sahələri əhatə edərək, vətəndaşın, cəmiyyətin rifah halının yaxşılaşması istiqamətində mühüm dəyişikliklərə səbəb olub və proses davam edir. 2019-cu ildən islahatlarımızın yeni mərhələsi başlayıb.



Prezident bəyan edib ki, 2019-cu ildən başlayan islahatların əsas hədəfi Azərbaycanı müasir, inkişaf edən və gələcəkdə inkişaf etmiş ölkəyə çevirmək, ölkədə mövcud olan nöqsanları aradan qaldırmaq, vətəndaşları narahat edən problemləri tamamilə həll etmək, insanların rifah halını yaxşılaşdırmaq, daha güclü, qüdrətli dövlət qurmaqdır ki, biz bu istiqamətdə məqsədyönlü, hərtərəfli siyasət aparır, həm beynəlxalq mövqelərimizi möhkəmləndirir, həm də regional əməkdaşlıq təşəbbüsləri ilə çıxış edirik".

N.Məmmədova bildirdi ki, dövlətimiz bir sıra islahatlar aparmaqla vətəndaş qarşısında ən mühüm vəzifəsini - onun rifahını, təhlükəsizliyini qorumaq əzmini sübuta yetirir.

Dövlətin vətəndaş qarşısında vəzifələri olduğu kimi vətəndaşın da dövlət qarşısında öhdəlikləri olduğunu deyən politoloq, Azərbaycan Konstitusiyasının "Vətəndaşların əsas vəzifələri" adlanan IV fəslində dövlət və cəmiyyət qarşısında hər bir şəxs onun hüquq və azadlıqlarından bilavasitə irəli gələn vəzifələr daşıdığını vurğuladı: "Konstitusiyanın 72-ci maddəsində bildirilir ki, hər bir şəxs Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əməl etməli, başqa şəxslərin hüquq və azadlıqlarına hörmət bəsləməli, qanunla müəyyən edilmiş digər vəzifələri yerinə yetirməlidir. Bu baxımdan hazırda ölkəmiz çox həssas bir dönəmdən keçir və vətəndaşlardan sayıq olmaq, təmkinlilik tələb olunur. Azərbaycan xalqı ağı-qaradan seçməyi bacaran, təmkinli xarakerə malikdir. Buna görə də xalq da dövlətin həyata keçirdiyi islahatlara ümidlə baxır, daxili və xarici qüvvələrin iğtişaşlar törətmək, dövlət hakimiyyətinə qarşı etirazlara başlamaq çağırışlarına qarşılıq vermirlər".



**Bakı Dövlət Universitetinin doktorantı, politoloq Ceyhun Əhmədli isə bildirdi ki,** Azərbaycan cəmiyyəti hər zaman dövlətçilik məsələlərində böyük həssasiyyət nümayiş etdirib. O vurğuladı ki, Azərbaycanın beynəlxalq münasibətlər sistemində mövqeyinin möhkəmlənməsi bəzi mərkəzlərin ürəyincə olmadığını vaxtaşırı olaraq ölkəmiz əleyhinə aparılan qarayaxma kampaniyaları və hazırlanan qərəzli hesabatlardan əyani olaraq müşahidə edirik: "Bu gün tamamilə təhlükəsiz və sabit Azərbaycan varsa, bunun kökündə xalq-iqtidar vəhdəti dayanır. İndiyə kimi ölkəmizdə siyasi sabitliyi pozmaq cəhdlərinin uğursuz olması Azərbaycan xalqının hazırkı iqtidara olan inamı ilə şərtlənir. Prezidentimiz də sonuncu müsahibəsində vurğulamışdır ki, Azərbaycan vətəndaşı hətta ən çətin anda belə ölkə rəhbərliyinə olan güvən hissini qətiyyən itirmir".

Politoloq vurğuladı ki, siyasətə söyüş və təhqir ritorikasının gətirilməsi çox üzücü və qəbuledilməzdir: "Siyasi mübarizə sağlam prinsiplər və dəyərlər üzərində qurulmalıdır. Təəssüf ki, bəzi siyasi dairələrin tez-tez təhqir və söyüş metoduna əl atmasını müşahidə edirik. Bu, arqument qıtlığının yaratdığı səbəbdir. Əsasən xaricdəki "siyasi mühacir" ordusu bu yola üstünlük verir. Amma gördüyünüz kimi Azərbaycan xalqı bu cür qüvvələrə qarşı həmişə sərt mövqe ortaya qoyur. İndiyə kimi həmin antimilli qüvvələrin heç bir sosial elektorata sahib olmaması bunun nəticəsidir".

Müsahiblərin də fikirlərindən aydın olur ki, dövlətin lütfündən yararlanmış müəyyən insanların dövlətin mənafelərinin müdafiəsinə biganə yanaşmalarına baxmayaraq, Azərbaycan xalqı ictimai və dövlət maraqlarının müdafiəsində yüksək fəallıq nümayiş etdirir. Bunun nəticəsidir ki, Azərbaycan güclü dövlətə çevrilib.

**Məhərrəm Ağalaroğlu, *"İki sahil"***

***Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim edilir.***

# Əli Kərimlinin əbədi müxalifət titulu itirmək və xarici qrantlardan məhrum olmaq qorxusu

**Son illər ölkəmizin əldə etdiyi uğurlar "sapı özümüzdən olan baltalar"ı daha çox narahat edir. Odur ki, Vətən, millət təəssübkeşliyindən uzaq olan bu üzdəniraq müxalifətçilər hər vasitə ilə xaricdəki havadarlarının yardımı, diktəsi ilə küçə mitinqləri keçirməklə sabitliyimizi pozmağa çalışırlar. Onların arasında bir zamanlar hakimiyyətdə olmuş, düşmən dəyirmanına su tökməkdə püxtələşmiş Əli Kərimli daha çox diqqəti "cəlb edir". Belə ki, o, indi daha "unikal addımlar" atmaqdadır.**



Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun "Müxalifətçilik missiyası və Azərbaycanın milli maraqları" sərlövhəli məqaləsində bildirdiyi kimi, inkişaf edən Azərbaycandan təşvişə düşən Əli Kərimli əhalinin rifahının yüksəldilməsi ilə bağlı hakimiyyətin atdığı addımları əlində bayraq edib siyasi xal qazanmağa cəhd göstərir. Daha doğrusu, Prezident İlham Əliyevin xalqın sosial rifahının yaxşılaşdırılması istiqamətində gördüyü hər bir işi "öz əməyinin nəticəsi" kimi təqdim etməyə çalışır. Amma xalq yaxşı bilir ki, bu gün onların yeganə himayədarı Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyevdir. Məhz bu uğurlar da dövlət başçımızın düşünülmüş uğurlu siyasətinin bəhrəsidir.

Bəli, xalq onu da yaxşı bilir ki, bir zamanlar Əli Kərimli adamları süd gölündə üzdürəcəyini, küçələrə başdan-başa mərmər döşəyəcəyini deyirdi. Amma hakimiyyətə gələn kimi yalnız və yalnız özünə, yaxınlarına gün ağlamaqla kifayətləndi. Cənab Prezident İlham Əliyev isə demək olar ki, hər gününü xalqın arasında keçirir, onların problemləri ilə daha yaxından maraqlanır: Lənkəranda bina çökəndə, Aranda Kür daşanda, Zaqatalada, Şamaxıda zəlzələ olanda xalq öz Prezidentini onunla çiyin-çiyinə dayanmış görmədimi, onun əlini kürəyində hiss etmədimi? Cənab Prezident vətəndaşlarımızın sosial rifahlarının yaxşılaşdırılması istiqamətində dəfələrlə əməli addımlar atmadımı? Məhz cənab İlham Əliyevin prezidentliyi dövründə Azərbaycan iqtisadiyyatı 3,3, maaşlar 7, pensiyalar 9, valyuta ehtiyatları 24 dəfə artmadımı, işsizlik və yoxsulluq həddi 5 faizə düşmədimi? Bu gün Azərbaycan hakimiyyəti dünyaya "ASAN xidmət" inqilabının təcrübəsini yaymırmı? Xalq bütün bunları yaxşı görür. Bunları görməyənlər isə Əli Kərimli kimi kar və korlar, eyni zamanda, Azərbaycana Suriyanın "inqilab təcrübəsi"ni idxal etmək istəyən, Formula 1 avtomobilləri əvəzinə Bakının küçələrində tankların irəliləməsini arzulayan nankorlardır.

Bəli, bu gün Əli Kərimli ölkə başçısının hər bir uğurlu islahatına kölgə salmaqdan ötrü sözün həqiqi mənasında, dəridən-qabıqdan çıxır. Başqa sözlə desək, öz erməni xisləti ilə aranı qarışdırmağa çalışır.

Prezidentin köməkçisi qeyd edib ki, bu mənada bütün bu kimi uğurlar Əli Kərimlinin, eləcə də ətrafının siyasi iflasını sürətləndirir və onu əbədi müxalifət titulunu da itirmək təhlükəsi ilə üzləşdirir, üstəlik, xarici qrantlardan məhrum edir.

Şübhəsiz, Əli Kərimlinin hakimiyyətin islahatlarını üç-beş min adamın iştirak etdiyi 19 yanvar mitinqinin nəticəsi kimi qələmə verməsi isə populizm və ictimaiyyəti aldatmaq cəhdindən başqa bir şey deyil. Bu yerdə Əli Həsənovun həmin məqaləsindən bir sitat gətirmək yerinə düşərdi: "Doğrudanmı bu adamlar sadə riyazi hesablamalar apara, bütün güclərini ortaya qoyub "Məhsul" stadionuna yığdıqları bir neçə min adamın Azərbaycanda elektoratın son dərəcə cüzi, sıfıra yaxın bir hissəsini təşkil etdiyini, tərəfdarlarının, hətta ölkədə mövcud olan seçki məntəqələrinin sayından da az olduğunu görə bilmirlər? Onlar görməsə də, Azərbaycan cəmiyyəti hər şeyi yaxşı görür! Azərbaycan cəmiyyəti yaxşı görür ki, 25 ildən artıq bir müddətdə müxalifət düşərgəsində ərsəyə gətirilən "birlik formatları"nın hər biri mövsümi xarakter daşıyıb, fəslin başında "bu dəfə gəlirik" deyə bir-birinə ümid və təsəlli verənlər axırda yabalaşmaya çıxıblar". Bu isə o deməkdir ki, Azərbaycanın gündən-günə güclənməsi, çiçəklənməsidir ki, Əli Kərimlini və onun ətrafının gözlərini qamaşdırır, onları stress vəziyyətinə salır, bu da üzdəniraqların isterik bəyanatlarına, açıqlamalarına səbəb olur.

Əli Həsənov məqaləsinin sonunda: "Azərbaycan müxalifəti niyə belə zəif və perspektivsizdir" sualına da çox maraqlı, həm də yaddaşlara həkk olunacaq bir cavab verib: "Çünki onlar Prezident İlham Əliyevin düşünülmüş, prinsipial milli siyasəti, dövlət başçısının müasir və qüdrətli Azərbaycan naminə açdığı yeni üfüqlər, vətəndaş təşəbbüskarlığına yaratdığı imkanlar qarşısında aciz vəziyyətdə qalmağa məhkumdurlar".

Bəli, bu gün xalqımız əvvəlki deyil. Yəni o, indi ağı qaradan seçməyi bacarır. Bu mənada Əli Kərimli və onun kimilər bilməlidirlər ki, qrantlar hesabına formalaşmış çağırışlar, boş vədlər xalqı öz yolundan sapdıra bilməz.

2016-cı ilin Aprel döyüşlərində Azərbaycan əsgərinin şanlı zəfərini aşağılayan Əli Kərimli kimi fərari xisləti ünsür anlasın ki, möhtərəm Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin apardığı uğurlu xarici siyasət sayəsində işğal altında olan bütün torpaqlarımız da azad ediləcək, üçrəngli bayrağımız həmin ərazilərimizdə də dalğalanacaq.

**Qvami Məhəbbətoğlu,**
***"İki sahil"***

## XOCALI SOYQIRIMININ UKRAYNALI PİLOT ŞAHİDİ:

# Hamımız bu dəhşətli faciədən sarsılmışdıq



Ermənistan Azərbaycana qarşı işğalçılıq siyasəti başlayandan sonra dinc əhalinin hərbi münaqişə zonasından çıxarılması üçün Qarabağa intensiv uçuşlar edirdim. 1992-ci il fevralın 27-də idarə etdiyim helikopter Xocalı üzərində uçarkən dəhşətli mənzərənin şahidi olduq. Dağın döşündə şəhərin dinc sakinlərinin cəsədləri vardı.

Bu fikirləri Ukraynanın Lvov şəhərində "Xocalı soyqırımının hüquqi aspektləri" mövzusunda keçirilən seminarda çıxışı zamanı Xocalı faciəsinin canlı şahidlərindən biri - ukraynalı helikopter pilotu Leonid Kravets söyləyib.

Pilotun sözlərinə görə, onlar Gəncəyə qayıdaraq yerli hakimiyyət orqanlarını bu haqda məlumatlandırıblar: "Sonradan həmin yerə jurnalist Çingiz Mustafayev və onun köməkçilərini çatdırdım. Hamımız bu dəhşətli faciədən sarsılmışdıq. O qədər çox cəsəd var idi ki, hadisənin miqyasını tam əks etdirmək üçün çəkilişi yuxarıdan aparmaq lazım idi".

Ukraynalı pilot bildirib ki, Xocalı hadisəsi insanlığa qarşı törədilmiş ən ağır cinayətdir.

Qeyd edək ki, seminar Azərbaycanın Ukraynadakı səfirliyi, "Lvov Politexnik" Milli Universiteti, Birləşmiş Ukrayna Azərbaycanlıları Konqresinin gənclər departamentinin və UNESCO nəzdində Beynəlxalq Ədəbiyyat və Jurnalistika Akademiyasının birgə təşkilatçılığı ilə keçirilib.

# Radikalların dini ekstremistlərlə yeni iş birliyi



**Sevinc Azadi**

Xalqın dəstəyindən məhrum olan, nüfuzunu, sosial dayaqlarını tamamilə itirən, ölkəmizdə İslam dövləti yaratmaq xəyalında olan radikal-terrorçu qüvvələrlə işbirliyi qurub, ermənipərəst xarici dairələr tərəfindən idarə olunmaqla qanunsuz maliyyələşən AXCP və digər radikal müxalifət partiyalarının ənənəvi inkarçı və qərəzli mövqedən çıxış edərək varlıqlarını sübut etmək naminə müxtəlif üsul və vasitələrdən istifadə etməyə çalışmaları artıq heç kəsə sirr deyil. Çörəyi qarşıdurma və vətəndaş münaqişəsindən çıxan bu qüvvələr xaricdən aldıqları təlimatlara uyğun olaraq, hakimiyyətlə xalq arasında nifaq toxumu əkmək üçün inanclı kəsimi hakimiyyət uğrunda mübarizənin müqəddəs dəyərlər uğrunda mübarizə olduğuna inandırmağa çalışırlar. Bu məqsədlə yenidən ortaya atılaraq mitinq keçirmək sevdasına düşüblər. Azsaylı tərəfdarlarını "Məhsul" stadionuna yığmağa tələsən Əli Kərimli növbəti aksiyanı fevralın 23-nə təyin edib. Radikalların mitinqinə icazə verilib-verilməyəcəyi hələ sual altındadır. Buna baxmayaraq, "Milli Şura"nın faktiki rəhbəri olan Kərimli indidən hazırlığa başlayıb, sosial şəbəkələrdə adam toplamaq üçün təbliğat aparır. Müxalifətin budəfəki "qəhrəman"ı Azərbaycanda din pərdəsi altında iğtişaşlar törətməyə çalışan xarici agent, hazırda həbsdə olan Hacı Taleh Bağırzadədir. Son vaxtlar onun gündəmə gəlməsi və gətirilməsi üçün ardıcıl cəhdlər edilməkdədir, olunur. Guya o, həbsdə "aclıq aksiyası keçirir, təzyiqlərə məruz qalır". Bunu əsas tutan Kərimli sosial şəbəkələrdə daha çox dini təbəqəyə yönəlik paylaşımlar etməklə, onları öz alətinə çevirməyə çalışırdı. Məqsəd isə təbii ki, mitinqə daha çox adam toplamaq idi.

Xatırladaq ki, Əli Kərimli ilə Taleh Bağırzadənin "Müsəlman Birliyi" adlı dini-ekstremist təşkilatla əməkdaşlığının əsası hələ Nardaran hadisələri zamanı qoyulub. Nardaranda hüquq mühafizə orqanları əməkdaşlarının həlak olması ilə nəticələnən hadisələr zamanı Əli Kərimli və onun tərəfdaşları radikal dindarları açıq dəstəkləmişdilər. AXCP sədrinin müavini Fuad Qəhrəmanlı da konkret olaraq dövlət əleyhinə çağırışlar edərək, ölkədə insanlar arasında ədavət yaratmağa uğursuz cəhdlər etmişdi. Hətta Cəmil Həsənli konkret cinayət əməli törətmiş, dini-ekstremist qrupa rəhbərlik edən Taleh Bağırzadənin "Milli Şura"nın üzvü olmasını "qəhrəmanlıq salnaməsi" kimi cəmiyyətə təqdim etmişdi. Əli Kərimli isə "Azadlıq" qəzetində Taleh Bağırzadəyə açıq şəkildə dəstək verirdi.

Bu faktlar radikal müxalifətlə dini ekstremist qüvvələrin bir amala xidmət etdiyini sübuta yetirir. Bu qaragüruhun məqsədi ölkədə qarşıdurma yaratmaq, nifaq salmaq və bundan öz çirkin siyasi məqsədləri üçün yararlanmaqdır. Bu gün Əli Kərimlinin ətrafında olanlar, eyni zamanda, onun qohumlarının da dövlətimizə, xalqımıza qarşı düşmən mövqeyində olduğunu görürük. Azərbaycan hakimiyyətini, dövlətini açıq təhdid edən orduxanlar, isgəndərlilər siyahısına Əli Kərimlinin əmisi oğlunun terrorçulara xas bəyanatlarla qoşulması da bu siyasətbazların hansı əqidəyə qulluq etdiyini bir daha göstərir.

Xalqın dəstəyindən məhrum olan və siyasi fəaliyyətlərini radikallıq, eləcə də terrorçuluq prinsipləri üzərində quran destruktiv müxalifətin iç üzü açıldıqca cəmiyyət onları daha yaxından tanıyır. Azərbaycan dövlətçiliyini məhvə sürükləmək niyyətində olan radikal müxalifət və ekstremist dindarlar anlamalıdırlar ki, hüquqi, dünyəvi dövlətdə onlara heç zaman yer olmayacaq.

# Cəlil Məmmədquluzadənin 150 illik yubileyi ilə bağlı elmi konfrans



**AMEA Naxçıvan Bölməsində Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, yazıçı, dramaturq və ictimai xadim Cəlil Məmmədquluzadənin 150 illik yubileyinə həsr olunan elmi konfrans keçirilib.**

Tədbir AMEA Naxçıvan Bölməsi, Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyi, "Naxçıvan" Universiteti və Naxçıvan Dövlət Universiteti tərəfindən birgə təşkil olunub.

Konfransda Bölmənin sədri, akademik İsmayıl Hacıyev Prezident İlham Əliyevin "Cəlil Məmmədquluzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında", eyni zamanda, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun "Cəlil Məmmədquluzadənin 150 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsinə dair Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında sərəncamlara uyğun olaraq ölkəmizdə, o cümlədən muxtar respublikada silsilə tədbirlər keçirildiyini bildirib. Alim sözügedən sərəncamların təkcə Mirzə Cəlilə deyil, bütünlükdə Azərbaycan ədəbiyyatına verilən dəyər kimi qiymətləndirib.

Daha sonra İsmayıl Hacıyev Azərbaycan ədəbiyyat tarixində xüsusi yer tutan, böyük yazıçı və ictimai xadim, Naxçıvan ədəbi mühitinin yetirməsi, "Molla Nəsrəddin" satirik məcmuəsinin və eyniadlı ədəbi məktəbin yaradıcısı Cəlil Məmmədquluzadənin zəngin və çoxcəhətli yaradıcılıq fəaliyyəti barədə ətraflı məlumat verib. Bildirib ki, vətən, millət, dil Cəlil Məmmədquluzadə yaradıcılığının əsas mövzusu olub. Görkəmli ədibin publisistikası, dram əsərləri Azərbaycan ədəbiyyatı tarixində mühüm yer tutur. Milli ideyalılığı, xalqa bağlılığı, ana dilinə məhəbbəti, eləcə də müasirliyi və bəşəri dəyərləri təbliğ edən yazıçının zəngin irsi xalqımızın ədəbiyyat tarixində və yaddaşında unudulmaz yer tutub.

Alim Cəlil Məmmədquluzadə yaradıcılığına, onun ədəbi-mədəni irsinə göstərilən dövlət qayğısından da bəhs edib. Diqqətə çatdırıb ki, ölkəmizdə bir sıra mədəni-maarif müəssisələrinə ədibin adı verilib. Onun vaxtilə müəllimlik etdiyi Baş Noraşen kəndi Cəlilkənd adlandırılıb. Bakı və Naxçıvanda Cəlil Məmmədquluzadənin ev-muzeyləri, Nehrəm və Cəlilkənddə xatirə muzeyləri yaradılıb. Həmçinin Naxçıvan və Cəlilabadda ədibin heykəli qoyulub.

Bölmə sədri əlavə edib ki, görkəmli yazıçının əsərləri latın qrafikası ilə yenidən çap olunub, bir sıra xarici dillərə tərcümə edilib, yaradıcılığının tədqiqi və təbliği istiqamətində mühüm işlər görülüb.

Konfransda Bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Ədəbiyyatşünaslıq şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Qasımov "Azərbaycan milli tənqidi realizmin banisi və ideoloqu-Cəlil Məmmədquluzadə", Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, şair Asim Yadigar "Kiçik hekayənin böyük ustadı-Cəlil Məmmədquluzadə", İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev "Cəlil Məmmədquluzadə yaradıcılığında ana dili problemi", "Naxçıvan" Universitetinin kafedra müdiri, filologiya üzrə fəlsəfə doktoru Nüşabə Məmmədova "Cəlil Məmmədquluzadə yaradıcılığında azərbaycançılıq", Naxçıvan Dövlət Universitetinin dosenti, filologiya üzrə fəlsəfə doktoru Seyfəddin Eyvazov "Cəlil Məmmədquluzadə dramaturgiyasında konflikt və xarakter" mövzusunda məruzələrlə çıxış ediblər.

*AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi*

# DEPUTAT: Bu hadisə iki xalqın dostluğuna xələl gətirə bilməz



Fevralın 15-də Moskvadakı "Neolit" kafesində azərbaycanlılar və çeçenlər arasındakı insident məişət zəminində baş vermiş adi kriminal hadisədir. Tarixən Azərbaycan və çeçen xalqları arasında dostluq əlaqələri mövcud olub. Bu gün də bu xalqlar arasındakı münasibətlər müsbət xarakteri ilə səciyyələnir.

Milli Məclisin deputatı Asim Mollazadə hadisə ilə bağlı qəzetimizə açıqlamasında bildirdi ki, Moskvada baş vermiş insident azərbaycanlılarla çeçenlər arasındakı münasibətlərə təsir etməyəcək: "Çünki bu qardaş xalqlar çox yaxındır və hər zaman bir-birini dəstəkləyiblər. Heç şübhəsiz ki, bu insident ermənilərin və ermənipərəst qüvvələrin təxribatıdır. Bu xalqlar arasında növbəti münaqişənin yaranmasında maraqlı olan qüvvələr çoxdur. Belə təxribatçılara uymaq lazım deyil. Hər iki diasporun nümayəndələri baş verən hadisələrə qiymət verərək birmənalı şəkildə bunu pisləyiblər. Əlbəttə ki, məişət zəminində baş verən bu cür hadisələr azərbaycanlılar və çeçenlər arasında münasibətlərə heç bir ziyan vurmayacaq. Azərbaycanlılar və çeçenlər bundan sonra da dostluq və qarşılıqlı anlaşma mühitində yaşayacaqlar".

A.Mollazadə qeyd etdi ki, insidentdən sonra həm Azərbaycan, həm də çeçen rəsmilərinin açıqlama ilə çıxış etmələri və bu hadisələri pisləmələri münasibətlərin yüksək səviyyədə olduğunun göstəricisidir: "Azərbaycan hökuməti insidenti adi məişət zəminində baş vermiş kriminal hadisə kimi dəyərləndirib və hesab edir ki, belə hadisələr qardaşlıq əlaqələrinə xələl gətirə bilməz. Azərbaycan Prezidenti İlham Əliyev ötən il noyabrın 27-də Çeçenistan Respublikasının başçısı Ramzan Kadırovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edərkən bu məsələlər diqqət mərkəzində olub. Dövlətimizin başçısı qeyd edib ki, bizim Çeçenistan və Şimali Qafqazın digər respublikaları ilə münasibətlərimiz Azərbaycan ilə Rusiya arasındakı əlaqələrin mühüm amilidir".

Deputat söylədi ki, Azərbaycan ilə Rusiyanı, hər şeydən əvvəl, ümumi tarixi keçmiş birləşdirir: "İki ölkə bir neçə onillik ərzində eyni ittifaqın tərkibində mövcud olublar. Bu gün iki qonşu ölkə müstəqil dövlətlər kimi uğurla inkişaf edərək aralarındakı strateji tərəfdaşlıq münasibətlərini daha da möhkəmləndirirlər. Azərbaycan və çeçen xalqları arasındakı tarixi əlaqələri pozmağa çalışan qüvvələr buna nail ola biləcəklərini düşünürlərsə, yanılırlar".

**Cavid Əkbərov,**
***"İki sahil"***

# SOCAR-ın TENDERLƏRİ



*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## "Azneft" İstehsalat Birliyi

**nasoslara olan tələbatı təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (11022AM-19) Lot 1 üzrə zərflərin açılış tarixini uzadaraq yenidən elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 07.03.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanına təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 1 surəti olmaqla 14.03.2019-cu il, Bakı vaxtı ilə saat 11:00-a qədər zərflərin açılış zalında Satınalmalar qrupuna təqdim olunmalıdır. İddiaçının nümayəndələri qeydiyyatdan keçmələri üçün ən az yarım saat öncədən Satınalan təşkilata gəlməlidirlər.

* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

* İştirakçının inzibati binaya buraxılışını təmin etmək üçün müraciət məktubunda iddiaçı şirkəti təmsil edəcək şəxsin adı, soyadı, vəzifəsi mütləq qeyd olunmalıdır.

* İddiaçını müsabiqədə təmsil edəcək şəxslə bağlı sonradan edilən dəyişiklik qəbul olunmayacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ya rus dilində əldə etmək istəyənlər LOT 1 üzrə 177 AZN (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTIRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***

* Satınalma müqaviləsinin təchizat 60 gün ərzində icra olunması tələb olunur.

***V. Müsabiqə təklifinin təminatı:***

* İddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 1%-i miqdarında təminat tələb olunur. (ayrı zərfdə təqdim edilməlidir)

* Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır.

* Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.

* Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.

* Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.

* Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunur.

***VI. Satınalan təşkilatın ünvanı:***

AZ1000, Bakı şəhəri, Səbail rayonu; Neftçilər prospekti 73; SOCAR, "Azneft" İB

**Əlaqələndirici şəxs:**

Qasımov Vüqar
Satınalmalar və Təchizat şöbəsi, mühəndis
korporativ telefon nömrəsi: +99412 521 00 00 - 11 382 (daxili)
korporativ mobil nömrəsi: +99450 841 13 82
korporativ faks nömrəsi: +99412 521 11 72
korporativ elektron ünvanı: Vugar.Qasimov@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 14.03.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə bilər:

http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azneft" İstehsalat Birliyinin Satınalmalar qrupu**



# Niyənin niyəsi?

**Bir çoxumuzun niyə ilə başlayan cavabsız sualları var. Təbii ki, sualın özü qədər onun cavabı da maraqlıdır. Aparılan araşdırma nəticəsində məlum olmuş çox maraqlı faktlarla rastlaşırıq:**

***Niyə idmançılar məşq zamanı ritmik musiqi dinləyirlər?***

Musiqi dinləyəndə, məşqlərin texnikasına fokuslanmaq və lazımsız fikirlərdən uzaqlaşmaq beyin üçün daha asan olur.

***Niyə özümüzü qıdıqlaya bilmirik?***

Özümüzü qıdıqlamaq istədikdə beynimiz toxunan hissənin öz bədən üzvümüz olduğunu bildiyi üçün məlumatı "iqnor", yəni bloklayır. Nəticədə özümüzü qıdıqladıqda qıdığımız gəlmir.

***Niyə Niderlanda Hollandiya deyirik?***

Ölkənin rəsmi adı Niderland Krallığıdır. Niderland alçaq torpaq kimi tərcümə olunur. Ölkə düzənlik olan sahilyanı ərazidə yerləşir, torpaqların 40 faizi dəniz səviyyəsindən aşağıdadır. Rəsmi dil də Niderland dilidir. Hollandiya Niderlandın 12 əyalətindən 2-sidir. Şimali və Cənubi Hollandiya. Hollandiya ən güclü və zəngin bölgəsidir. Buradakı şəhərlər də dünyanın hər tərəfinə üzən nəhəng ticarət gəmilərinin, pulun və sənətin mərkəzi idi. Dünyaya yayılmış zəngin tacirlər, diplomatlar və alimlər əsasən bu bölgənin sakinləri idilər. Bütün dünya bura Hollandiya, buradan gələnlərə isə hollandiyalılar deməyə başladılar. Niderlandlar ölkələrinə Hollandiya deyilməsini xoşlamırlar.

***Niyə yanaqlarımız qızarır?***

Qızartı üzdəki xırda kapilyarların genişlənməsinə görə yaranır. Qan dəriyə axır və üz qızarır. Üzün qızarması narahatlıq göstəricisidir. Bu zaman bədən müdafiə rejiminə keçir. Bədənin idarəsi simpatik sinir sisteminə keçir. Bu tip sinir sistemini də biz kontrol edə bilmirik. Vəziyyətdən çıxmaq üçün orqanizmi döyüş hazırlığı vəziyyətinə gətirmək lazımdır. Simpatik sinir sistemi orqanizmdə enerjini döyüşə hazırlıq üçün tənzimləyir: nəfəsi və ürək döyüntüsünü sürətləndirir, damarları daraldır, həzm prosesini zəiflədir, göz bəbəklərini genişləndirir, qanı əzələlərə vurur ki, hər an dalaşmağa və qaçmağa hazır olaq. Buna görə də əsəbləşəndə, utananda, qorxanda, küsəndə qızarırıq.

***Niyə qəpik yığmaq üçün olan daxıllar donuz formasında olur?***

Orta əsrlərdə dəmir baha olduğu üçün ev əşyalarını "pygg" adlanan gildən düzəldirdilər. Qəpik yığmaq üçün düzələn qaba isə insanlar "Pygg Bank" deyirdilər. "PYGG" sözü ingilis sözü olan "pig" sözünə bənzədiyi üçün daxılın adı "Piggy Bank" qaldı. Bu isə "donuz daxılı" kimi səslənir.

***Niyə pəncə düz olduqda hərbi xidmətə aparmırlar?***

Çünki bu cür pəncə ilə yerimək çətindir. Düz pəncədən əziyyət çəkən bir adamın yeriyərək uzun məsafə qət etməsi çox çətin olur. Düz pəncəli ayaq üzərinə bədənin ağırlığı bərabər yayılmır. Buna görə də ayaqlar tez yorulur. Onların hərbi xidmətdə fəaliyyəti də sağlamlıq üçün ciddi təhlükəyə səbəb ola bilər.

***Niyə "Coco Chanel"in ilk ətri N1 yox, N5 olub?***

Koko Şanel Ernest Bodan qadın ətrini yaratmasını xahiş edir. Bo seçim üçün 10 ətir nümunəsini təqdim edir. Koko Şanel bunlardan 5-ci ətiri seçir. Buradan da ilk ətir yarandı. Qeyd edək ki, Şanelin sevimli rəqəmi "5" olduğu üçün məhz onu seçib.

***Niyə yumurta toyuqdan əvvəl yaranıb?***

Yəqin ki, bu sualı eşitməyən çox az insan var: "Yumurta birinci yaranıb, ya toyuq?" Sualın cavabına təkamül baxımından yanaşdıqda əslində cavab çox asan və sadədir. Əlbəttə ki, ilk yumurta yaranıb, toyuq da yumurtadan çıxıb. Toyuq 10 min il əvvəl təkamül nəticəsində yaranıb. Toyuğun aid olduğu quşlar sinfinin kökü isə 230 milyon il əvvəl yaşamış dinozavrlara qədər gedib çıxır. Heyvanlar aləmindəki qurudayaşayanların ilk yumurtaqoyma tarixi isə 340 milyon il əvvələ qədər gedib çıxır. 340 milyon il əvvəldən indiyədək yaşamış quşların bütün ataları və quşların özü yumurtadan çıxıblar.

***Niyə ingiliscə saat deyəndə "o-clock" deyirik?***

Bildiyimiz kimi, ingiliscədən tərcümədə saat "clock"dur. Bəs niyə bəzən "o-clock" işlədilir. Mexaniki saatlar məşhurlaşmadan öncə insanlar əsasən günəşə, aya, ulduzlara baxıb vaxtı təyin edirdilər. Əlbəttə ki, bu tip vaxt təyinetmə metodu mexaniki saatlarla uyğunsuzluq təşkil edirdi. Bu isə insanları dəqiq vaxtı söyləmək baxımından çətinliyə salırdı. İnsanlar başqa birinə mexaniki saata baxaraq vaxtı dedikdə "of the clock" yəni saatın göstəricisinə görə vaxt budur. "Of the clock" ifadəsi bu gün qısalaraq "o-clock" kimi işlədilir.

***Niyə eskalatorun əl tutacağı pillələrdən fərqli sürətdə hərəkət edir?***

Əl tutacaqları rezindir və üzərinə rezin keçirilmiş təkərlər vasitəsilə hərəkət edirlər. Bu təkərlərin üzərindəki rezin zaman keçdikcə yeyildiyi üçün təkərlərin diametri kiçilir və daha kiçik diametrli təkərlər aşağı sürətlə tutacağı hərəkət etdirirlər, sürət də aşağı düşür. Təkərlərin rezinlərinin yeyiləcəyini bilən mühəndislər təkərləri normadan böyük düzəldirlər. Təkər yeni olanda daha böyük olur və tutacaq da daha sürətlə hərəkət edir. Bir müddət sonra təkər azacıq yeyilir, tutacaq normal hərəkət edir. Daha çox yeyildikcə sürət daha çox aşağı düşür və təkərləri dəyişirlər.

***Niyə Bakıda bənövşə rəngli taksilərə "London Taksi" deyirlər?***

Hazırkı London taksiləri 1948-ci ildə "Austin"FX3 adı ilə istehsal edilib və "qara keb"adlandırılırdı. FX3 sonra FX4 ilə əvəz olundu. 1982-ci ildə "Carbodies" şirkəti FX4 modelinin istehsal hüququnu aldı və onun adını dəyişərək "LTI" (London Taxis İnternational" etdi. Yeni ad yarandı "LTI" Tx4. Bakıdakı taksilər də məhz bu modeldən olan avtomobillərdir.

***Niyə köhnə kitablardan qəribə qoxu gəlir?***

Kağız düzəldən ağacın tərkibini əsasən selüloz lifləri və liqnin təşkil edir. Liqnin kağıza sarımtıl rəng verir, buna görə istehsal prosesində onu aradan qaldırmaq lazımdır. Köhnə texnologiyalar bunu etməyə imkan vermirdi , ona görə də kağız sarımtıl olurdu və tez cırılırdı. Zaman keçdikcə, liqnin parçalanaraq benzaldehid də daxil olmaqla acı badam qoxusuna bənzər qoxulu maddələr yaradır. Bizim hiss etdiyimiz qoxu da məhz budur. Müasir kağızda demək olar ki, liqnin yoxdur, buna görə də kitablar zaman keçdikcə nə saralır, nə qoxusunu dəyişir.

***Niyə körpələr dünyaya gəldikdə ağlayır?***

Buna səbəb qorxudur. Körpə ilk olaraq ananın isti bətnindən daha soyuq, qeyri-adi bir mühitə düşür. Bunun ardınca isə səslər, toxunuşlar ardınca körpə nəfəs almaq məcburiyyətini hiss edir və nəfəs alır. Bütün bunlara uşaq ağlayaraq reaksiya verir.

**21 FEVRAL - BEYNƏLXALQ ANA DİLİ GÜNÜDÜR**




# Öz dilimdir şirin dil...

**UNESCO-nun Baş konfransında qəbul edilən qərara əsasən, 2000-ci ildən fevralın 21-i Beynəlxalq Ana Dili Günü elan edilib. Bu günün özəl tarix kimi keçirilməsinin isə səbəbləri var; dünyada mövcud olan dillərin qorunmaq, hər kəsə öz doğma dilinin varlığını hiss etmək, onunla qürur duymaq, onu qorumaq, inkişaf etdirmək, dil-üslub xüsusiyyətlərinə əməl etmək. Həmin gün təlim-tədris müəssisələrində ana dilinin əhəmiyyətindən, xalqın varlığı üçün zərurətindən bəhs edilir, bu günə həsr olunan tədbirlər, yığıncaqlar keçirilir.**

Artıq 19 ildir ki, qeyd olunan Beynəlxalq Ana Dili Günü ölkəmizdə də ənənəyə sadiq olaraq keçirilir. Bu tədbirlərdə dünya xalqlarının dilləri sırasında özünəməxsus yüksək yeri olan Azərbaycan dilinin də inkişaf mərhələlərindən geniş söhbət açılır. Qeyd edilir ki, Azərbaycan dilinin hərtərəfli inkişafı, təkcə sözdə deyil, gündəlik təcrübədə ümumişlək dilə, dövlət dilinə çevrilməsi, diplomatiya aləminə yol açması, zənginləşərək nüfuz qazanması istiqamətində mühüm addımlar atılıb. 2001-ci il iyunun 18-də ümummilli lider Heydər Əliyev "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərman imzalamışdır. Bu tarixi sənəd dilimizin inkişafı və tətbiqi sahəsində meydana çıxan problemlərin həllində mühüm rol oynamışdır. Həmin Fərmanda Azərbaycan Prezidenti yanında Dövlət Dil Komissiyasının yaradılması da nəzərdə tutulurdu. Belə bir qurumun yaradılması ana dilimizin tətbiqi işinin təkmilləşdirilməsinə daha səmərəli şəkildə nəzarət etmək və bu prosesi ümummilli maraqlar kontekstində tənzimləmək məqsədi daşıyırdı. 2001-ci il avqustun 9-da ulu öndər Heydər Əliyev "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" əhəmiyyətli bir sənəd imzaladı. Bu sənəd dilimizin tətbiqi işinin daha mükəmməl səviyyədə həyata keçirilməsinə stimul verdi, yaddaşımıza və millimənəvi dəyərlərimizə, eyni zamanda, əlifbamızın beynəlxalq aləmə daha yaxın olan latın qrafikalı Azərbaycan əlifbasına keçidi sürətləndirdi. Məhz bundan sonra respublikada bütün yazılı sənədləşmələr heç bir istisnaya yol verilmədən latın qrafikası ilə aparılmağa başladı. Sərəncama əsasən 1 avqust ölkəmizdə Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd edilir. 2003-cü il yanvarın 2-də ümummilli lider Heydər Əliyevin Fərmanı ilə "Azərbaycan Respublikasında Dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə mindi. Həmin qanunda dövlətin ana dilinə qayğısı sahəsindəki əsas vəzifələr dəqiq göstərildi.

Ümummilli lider Heydər Əliyevin siyasi kursunu son 15 ildə bütün sahələrdə uğurla davam etdirən Prezidenti İlham Əliyev çıxışlarında, ictimaiyyət nümayəndələri ilə görüşündə həmişə dövlət atributlarına, xüsusilə də Azərbaycan dilinə, əlifbasına, mədəniyyətinə, incəsənətinə, milli adət-ənənələrinə xüsusi diqqət yönəldir. Dövlətimizin başçısının "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında" və "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncamları da ictimai-tarixi əhəmiyyətinə görə yüksək qiymətləndirilmişdir. Cənab İlham Əliyev, həmçinin 2004-cü il dekabrın 27-də "Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısının təsdiq edilməsi haqqında" Sərəncam imzalamışdı. Bu sənədlərə uyğun olaraq Azərbaycan və dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərləri kütləvi tirajla nəşr olunaraq ölkənin bütün kitabxana şəbəkəsinə hədiyyə edilmişdir. Hər iki Sərəncam üzrə Azərbaycan və dünya ədəbiyyatı, eləcə də lüğət və ensiklopediyalar silsiləsindən ümumi tirajı 9 milyondan çox ədəbiyyat kitabxanalara göndərilərək oxucuların ixtiyarına verilmişdir. Müasir Azərbaycan oxucularının dünya ədəbiyyatına olan mənəvi tələbatını təmin etmək məqsədilə ölkə Prezidenti 2007-ci il avqustun 24-də daha bir Sərəncam imzalamışdır. Həmin Sərəncama əsasən Azərbaycan və dünya ədəbiyyatı nümayəndələrinin əsərlərindən ibarət 150 cildlik "Dünya ədəbiyyatı"nın nəfis şəkildə nəşri nəzərdə tutulmuşdur. Prezidentin 30 dekabr 2007-ci il tarixli Sərəncamı ilə həmin əsərlərin siyahısı təsdiq edilmiş, 18 sentyabr 2008-ci il tarixli Sərəncamla isə həmin nəşrlərin maliyyələşdirilməsi təmin edilmişdir. "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı" (23 may 2012-ci il), "Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun maddi-texniki bazasının gücləndirilməsi haqqında" (29 may 2012-ci il), "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramının təsdiq olunması haqqında" (9 aprel 2013-cü il), "Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" (17 iyul 2018-ci il), "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" (1 noyabr 2018-ci il) fərman və sərəncamlar dilimizə olan diqqətin bariz nümunələridir.

Bu gün - XXI əsrdə biz gənclərin öhdəsinə düşən əsas vəzifə öz dilimizə, dinimizə, mədəniyyətimizə, adət-ənənələrimizə sahib çıxmaq, onu tərənnüm etmək, dilimizi gələcək nəsillərə indi olduğu kimi təmiz, yad ünsürlərdən uzaq, saf şəkildə çatdırmaqdır. Mənəviyyatımıza sahib çıxmaq isə hər bir azərbaycanlının müqəddəs vətəndaşlıq borcudur.

Səhifəni hazırladı: Yaqut Ağaşahqızı, *"İki sahil"*

# Antimilli qüvvələr "kukla" rolunda



**Taleh Bağırov**

Həyata keçirilən ciddi islahatların nəticəsi olaraq son illərdə Azərbaycan davamlı inkişaf edərək regionun lider dövlətinə çevrilib. Ölkəmizin sürətli və hərtərəfli inkişafı, iştirakçısı olduğu iqtisadi layihələrdə söz sahibi qismində çıxış etməsi və digər hallar onun beynəlxalq münasibətlər sistemindəki yerini daha da möhkəmləndirir. Eyni zamanda, Azərbaycan dünyada demokratik ənənələrə hörmət göstərən, vətəndaş cəmiyyətinin inkişafını təmin edən, tolerantlıq nümunəsi sayılan ölkə kimi qəbul olunur. Təəssüflər olsun ki, bunları qəbul edən qüvvələrlə yanaşı, uğurlarımızı inkar edən, qazanılan nailiyyətləri həzm edə bilməyən qüvvələr də yox deyil.

Lakin məsələ ondadır ki, erməni lobbisinin təsiri altında olan bu qüvvələr Azərbaycanın uğurlarına kölgə salmağa cəhd edərkən "sapı özümüzdən olan baltalar"dan maksimum və məharətlə istifadə edirlər. Özünü dağıdıcı müxalifət adlandıran, əslində isə ermənipərəst mərkəzlərin sifarişlərini yerinə yetirən həmin radikallar dövlətimizin, xalqımızın ünvanına böhtanlar atmaqdan çəkinmir, yalan informasiyalarla xalq arasında çaşqınlıq yaratmağa səy göstərirlər. Bu "sapı özümüzdən olan balta"ların fəaliyyəti müxtəlif sosial şəbəkələrdə yalanlar tirajlamaq, şər və böhtan kampaniyası aparmaqdan ibarətdir. Ermənipərəst mərkəzlərin, antiazərbaycan dairələrin ölkəmizə qarşı apardıqları çirkin kampaniyalara dəstək verən, bu kampaniyaların təbliğatçısı rolunda çıxış edən həmin ünsürlər ölkəmizin mənafeyinə qarşı erməni lobbisi ilə birlikdə hərəkət edirlər. Bundan başqa, onlar milli dəyərlərimizi hədəfə alır, dövlət əleyhinə qeyri-qanuni çağırışlar səsləndirirlər, xalqımıza qarşı mənəvi terror yaratmağa cəhdlər edirlər.

Son zamanlar siyasi mübarizə adı altında təhqir və söyüş hallarına da rast gəlirik ki, bu, nəinki siyasi, ümumən əxlaqi dəyərlərə belə uyğun olmayan "mübarizə" üsuludur. Bu hərəkətlərə yol verən istənilən şəxs kimliyindən asılı olmayaraq cəmiyyət üçün müsbət nümunə ola bilməz.

Söyüş və təhqir yolunu seçən bu antimilli qüvvələr və onların xarici emissarları artlq fiaskoya uğradıqlarının fərqindədirlər. Çünki maraqlı xarici dairələrin sifarişi ilə Azərbaycana qarşı olan planların alətinə çevrilmiş bu azsaylı qrupun əsl məqsəd və siması xalqımıza çox yaxşı bəllidir. Azərbaycan xalqı kimin kim olduğunu, hansı məqsədlərə köklələndiyini çox yaxşı bilir. Ermənipərəst mərkəzlərin "kukla"sına çevrilən bəzi mühacirlər və daxildəki dağıdıcı ünsürlər də bilməlidirlər ki, bu yolla onlar heç bir niyyətlərinə çata bilməyəcəklər.

# İctimai qınaq və hüquqi cəza

*Cəmiyyətimiz mediadan şantaj aləti, böhtan vasitəsi kimi istifadə edənlərə qarşı barışmazlıq, prinsipiallıq nümayiş etdirməlidir*



Bu gün Azərbaycanda demokratiyanı səciyyələndirən başlıca göstəricilərdən biri kimi çıxış edən azad, müstəqil mətbuatın inkişafı sayəsində ölkəmizdə kifayət qədər yüksək intellektə malik peşəkar jurnalist ordusu formalaşıb. Respublikamızda söz və mətbuat azadlığına, kütləvi informasiya vasitələrinə ən yüksək səviyyədə diqqət və qayğı göstərilir. Azərbaycanın artan iqtisadi imkanları mətbuatın inkişafı yolundakı çətinliklərin aradan qaldırılmasına, onun aktual problemlərinin həllinə şərait yaradır. Bütün bunların nəticəsidir ki, bu gün jurnalistikamız Vətənə, dövlətə və dövlətçiliyimizə xidmət edən əsl sənət sahəsinə çevrilib.

Çox təəssüf ki, bu gün jurnalistikaya qazanc mənbəyi kimi baxan, qeyri-peşəkar, başqalarının əlində oyuncağa çevrilən, hətta erməni lobbisinin və Azərbaycan əleyhdarlarının sifarişi və maliyyəsi ilə fəaliyyət göstərən üzdəniraq "media nümayəndələri" ölkəmizdəki demokratik şəraitdən sui-istifadə edərək hələ də media məkanında meydan sulayırlar. Beləleri müstəqil Azərbaycanımızın dövlət mənafeyini, milli maraqlarını müdafiə etmək, görülən işlərdən söz açmaq, postneft dövrünü əhatə edən genişmiqyaslı islahatların ruhuna uyğun analitik yazılar vermək, verilişlər hazırlamaq, maarifləndirici proqramlara üstünlük vermək, mövcud materiallara obyektiv yanaşmaq əvəzinə, ölkəmizdəki demokratik şəraitdən, söz, mətbuat azadlığından sui-istifadə edərək nəinki müxtəlif dövlət orqanlarının, ayrı-ayrı vətəndaşların, cəmiyyətin nüfuzlu üzvlərinin şərəf və ləyaqətini alçaldan, əsassız iddialarla dolu, həqiqətləri əks etdirməyən, böhtan xarakterli "məqalələr" dərc edərək onları "mənəvi terror"a məruz qoyurlar. Belə əməllərlə məşğul olanlar bilməlidirlər ki, mənəvi ziyan heç də hüquqi ziyandan az əhəmiyyət kəsb etmir. Bir də ki, mənəvi ziyan elə hüquq pozuntusu nəticəsində vurulan ziyanın bir növüdür.

Hər bir insan üçün isə yüksək mənəviyyat ən ali dəyər, başlıca amildir. Cəmiyyətdəki demokratik azadlıqlardan sui-istifadə edərək üzdəniraq saytların rəhbərcikləri bütün mənəvi-əxlaqi dəyərlərə zidd olaraq heç bir araşdırma aparmadan, məsələyə qeyri-obyektiv, qərəzli və əxlaqsızcasına yanaşaraq ayrı-ayrı vətəndaşlar, çox yüksək ictimai nüfuza malik ziyalılar, tanınmış şəxslər, idarə və müəssisələrin rəhbərliyi barədə hətta anonim məqalələr dərc edərək onların ictimai-işgüzar fəaliyyətinə xələl gətirir, ictimai fikri yayındırmağa çalışırlar. Onların bu əməlləri mənəviyyatsızlığın pik nöqtəsi olmaqla yanaşı, ciddi hüquq pozuntusu kimi dəyərləndirilməlidir.

Hər bir fərdin cəmiyyətdə şəxsiyyət kimi tanınmasını xarakterizə edən əsas keyfiyyətlər onun şərəf, ləyaqət və işgüzar nüfuzudur. Bu cür mənəviyyatsız işlərlə məşğul olanlar isə şərəf və ləyaqət kimi anlayışlardan çox uzaqdırlar. Şərəf, ləyaqət bir mənəvi kateqoriya kimi insanın (hər hansı bir peşə sahibinin) öz-özünə hörmətidir. Özünə hörmət etməyən, mənliyini, sənətini, peşəsinin ali dəyərlərini şəxsi maraqlarına, üç-beş qəpiyə satanlar isə tarixən ləyaqətsizlik ünvanı kimi tanınıblar.

"Jurnalist" adı altında fəaliyyət göstərən, jurnalistikanı öz çirkin əməllərinə qalxan edən belə yaramazlardan biri də "Realliq.info" saytının baş redaktoru İkram Rəhimovdur. Belə ki, Rəhimov İkram Rafiq oğlunun tabeçiliyində olan şəxslərlə birlikdə "Realliq.info" və digər "reket" informasiya saytları yaradıb, həmin internet qəzetlərin jurnalistləri adı altında ayrı-ayrı vətəndaşların barəsində rüsvayedici və böhtan xarakterli məlumatları mətbu orqanlarında müntəzəm yayıb dayandırılması müqabilində pul tələb etməsi və alması, bu üsulla müxtəlif idarə və təşkilatlarda çalışan şəxslərdən, sahibkarlardan dövri haqq toplaması barədə daxil olmuş çoxsaylı şikayətlər Dövlət Təhlükəsizliyi Xidmətində araşdırılıb. Bütün bunlar öz təsdiqini tapandan sonra İkram Rafiq oğlu Rəhimovun hədə-qorxu ilə pul tələb etdiyi barədə ayrı-ayrı şəxslərin şikayətləri araşdırılıb şübhəli şəxs kimi saxlanılaraq barəsində məhkəmə tərəfindən həbs qətimkan tədbiri seçilib. "Realliq.info"nun baş redaktoru İkram Rəhimovla bağlı yayılan məlumatlardan məlum olur ki, onun fəaliyyəti yalnız reketliklə kifayətlənməyib. Belə ki, o, hətta ölkənin nüfuzuna və informasiya təhlükəsizliyinə xələl gətirən əməllərlə də məşğul olub.

Şübhəsiz, İkram Rəhimov kimilərinin mətbuatla, jurnalistika ilə heç bir əlaqəsi yoxdur. Jurnalistikadan çox-çox uzaq olan beləleri öz şəxsi mənafeləri üçün bu yoldan bir vasitə kimi istifadə edirlər. Belələrinə qarşı yalnız jurnalistlərimiz, hüquq mühafizə orqanları deyil, cəmiyyətin hər bir üzvü, vətəndaşlarımız da barışmaz olmalıdırlar. İkram Rafiq oğlu Rəhimov kimilərə qarşı müqavimət olmayanda, onlara qarşı tədbir görülməyəndə beləleri şəbəkələşir və jurnalist adından çox məharətlə sui-istifadə edirlər. Belələrinə qarşı ictimaiyyətimiz çox diqqətli və barışmaz olmalı, onların şəbəkələşməsinə və cəmiyyətimiz üçün ciddi təhlükəyə çevrilməsinə imkan verməməlidir.

**Zahid Rza,**
***"İki sahil"***

# Paşinyanı Petrosyan idarə edir?

**Ermənistanın baş naziri Nikol Paşinyanı keçmiş prezident, onun müəllimi hesab olunan eks-prezident Levon Ter-Petrosyan idarə edir. Onun məsləhəti olmadan baş nazir Nikol Paşinyan özbaşına qərar qəbul etmir.**





Bu barədə Ermənistanın "Past" qəzeti yazıb.

Qəzet qeyd edir ki, son vaxtlar müxtəlif vəzifələrə yalnız Ter-Petrosyanın adamları təyin edilir.

Qeyd etmək lazımdır ki, hələ küçə inqilabı və çevriliş günlərində bəzi mətbuat orqanları Nikol Paşinyanın eks-prezident Levon Ter-Petrosyandan məsləhət alması barədə yazmışdılar. O zaman bildirilirdi ki, Paşinyan bütün addımlarını Petrosyanla razılaşdırılmış şəkildə atır. Görünür, bu vəziyyət indi özünü daha qabarıq surətdə büruzə verir. "Past" qəzeti yazır: "Bu addımlardan sonra keçmiş prezidentin aktiv siyasətə qayıdacağı haqqında məlumatlar yayılıb. Siyasi kluarlarda söz gəzir ki, Nikol Paşinyan xüsusilə xarici siyasət sahəsindəki qərarları Petrosyanın məsləhəti ilə qəbul edir. Belə ki, gün ərzində o, Petrosyanla telefonda müzakirələr aparır və qərarları məsləhətlərə uyğun qəbul edir".

Təsadüfi deyil ki, baş nazir Paşinyan özü də bir neçə dəfə çıxışında Levon Ter- Petrosyanla məsləhətləşdiyini bildirib. Deməli, Paşinyanın Petrosyan tərəfindən idarə edilməsinin əsası var. Hətta Levon Ter-Petrosyanın hakimiyyət adından danışdığı faktlar da var.

Artıq çoxdan məlumdur ki, Paşinyan keçmiş prezidentlər Serj Sarkisyan və Robert Koçaryanla düşmən münasibətdədir. Koçaryanın həbsi və təzyiq altında saxlanması da buna dəlalət edir. Çox güman ki, sabiqlərin ciddi nəzarətdə saxlanması da Petrosyanın Paşinyana verdiyi məsləhətlərdən biridir. Belə çıxır ki, Petrosyan Paşinyan hakimiyyətinin davam etməsində maraqlıdır. Bu ona həm özünə "krışa" yaratmaq, həm də yaxın ətrafını vəzifələrə yerləşdirməkdə ən yaxşı vasitədir. Petrosyanın mürəkkəb məsələlərdə hər vaxt Paşinyanı müdafiə etməsi bütün deyilənləri sübuta yetirir.

Xatırladaq ki, Levon Ter-Petrosyan İtaliyanın Ermənistandakı səfiri ilə görüşdüyü və ondan keçmiş prezident Robert Koçaryanla bağlı xahiş etdiyi haqqında məlumat yayıb. Məlumata görə, Petrosyan görüşdə İtaliyanın nümayəndəsinin Avropa İnsan Haqları Məhkəməsinin sədri olduğunu və səfirdən bu məhkəmədə Koçaryanın lehinə qərar çıxarılmamasını tələb edib. Petrosyan səfirin buna əməl ediləcəyi halda Ermənistanın İtaliyanı bütün beynəlxalq platformalarda dəstəkləyəcəyini deyib. Səfir isə bu təklifi rədd edib və bir daha Petrosyanla görüşməyəcəyini bildirib. İtaliya dövlətinin təmsilçisi ölkəsinin daxili işinə qarışmağa cəhd göstərdiyinə görə Levon Ter-Petrosyanı günahlandırıb və hiddətini nümayiş etdirib. Danışıqlar bununla da bitib.

Göründüyü kimi, Paşinyan-Petrosyan cütlüyünün siyasəti bütün sahələrdə Ermənistanı iflasa, dərin böhrana və fəlakətə doğru aparır. Açıq görünür ki, Ermənistan rəhbərliyi daxili problemləri həll edə bilmədiyi kimi, xarici siyasətdə də uğursuz cəhdlər edir. Nikol Paşinyan hakimiyyətə gələndən heç bir xarici səfəri uğurlu keçməyib. Buna görə də əvvəlki vaxtlardan fərqli olaraq ona olan inam əriyərək yoxa çıxıb.

**Vəli İlyasov, *"İki sahil"***

# SOCAR-ın TENDERLƏRİ



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## “Neftqaztikinti” Tresti

**müxtəlif ölçülü künclüklərə olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (25034-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 19.03.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 2 surəti olmaqla 28.03.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər 354 manat (ƏDV-ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***

Satınalma müqaviləsinin veriləcək sifariş əsasında 60 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

**Bank təminatı:**

İddiaçının təqdim etməli olduğu müsabiqə təklifinin təminatı müsabiqə təklifinin ümumi qiymətinin 2 (iki) %-dək məbləğindən aşağı olmamalıdır.

Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olmalıdır.

Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 % məbləğində müəyyənləşdirilir.

***V. Satınalan təşkilatın ünvanı:***

AZ1018 (indeks), Xətai rayonu, 2922 məhəllə, Zığ yolu küçəsi 41C, “Neftqaztikinti” Trestinin inzibati binasının 3-cü mərtəbəsi, Bakı şəhəri, Azərbaycan Respublikası.

**Əlaqələndirici şəxs:**
Astanov Siyavuş
Maddi-Texniki Təchizat və Marketinq şöbəsinin mühəndisi
Telefon nömrəsi: +994 12 521-00-00 25-125
Korporativ mobil: +994 50 454 66 33
Elektron ünvan: siyavush.astanov@socar.az

***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 28.03.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**“Neftqaztikinti” Trestinin Satınalmalar qrupu**



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## “Neftqaztikinti” Tresti

**müxtəlif ölçülü şvellerlərə olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (25035-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 19.03.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 2 surəti olmaqla 28.03.2019-cu il, Bakı vaxtı ilə saat 11:00-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər 354 manat (ƏDV-ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***

Satınalma müqaviləsinin veriləcək sifariş əsasında 60 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

**Bank təminatı:**

İddiaçının təqdim etməli olduğu müsabiqə təklifinin təminatı müsabiqə təklifinin ümumi qiymətinin 2 (iki) %-dək məbləğindən aşağı olmamalıdır.

Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olmalıdır.

Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 % məbləğində müəyyənləşdirilir.

***V. Satınalan təşkilatın ünvanı:***

AZ1018 (indeks), Xətai rayonu, 2922 məhəllə, Zığ yolu küçəsi 41C, “Neftqaztikinti” Trestinin inzibati binasının 3-cü mərtəbəsi, Bakı şəhəri, Azərbaycan Respublikası.

**Əlaqələndirici şəxs:**
Astanov Siyavuş
Maddi Texniki Təchizat və Marketinq şöbəsinin mühəndisi
Telefon nömrəsi: +994 12 521-00-00 25-125
Korporativ mobil: +994 50 454 66 33
Elektron ünvan: siyavush.astanov@socar.az

***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 28.03.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:30-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**“Neftqaztikinti” Trestinin Satınalmalar qrupu**

VAHİD AZƏRBAYCAN UĞRUNDA!
iki sahil
Son səhifə
www.ikisahil.az / www.ikisahil.tv
GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET
№ 34 (7289) / Çərşənbə, 20 fevral 2019-cu il


# YER FISTIĞI
## iqtisadi baxımdan sərfəli olan bu bitkinin faydaları da az deyil



Ting əkmək, ağac becərmək, torpağın yaşıl libasını artırmaq çox savab, xeyirxah bir işdir. Təbiətin ağ çiyərləri olan yaşıllıq zolaqları gözəllikdir, göz nurudur, sağlamlığın rəhnidir. Odur ki, ting əkib, bağbağat, yaşıllıq zolaqları salanlar sanki bir çinar ömrü yaşayır, ömürlərini uzadır, mənalı edir. Qeyd edək ki, muxtar respublikamızda meyvəçilik və tərəvəzçilik kənd təsərrüfatının əsas sahələrindən biri olub. Əlverişli torpaq-iqlim şəraiti olan bu ərazidə xalq seleksiyası yolu ilə çoxlu sayda meyvə, tərəvəz və üzüm sortları yaradılmasına və becərilməsinə əlverişli şərait var. Çoxlarımız üçün yeni olan yer fıstığı da belə bitkilərdən biridir. Bütün bunlar barədə Culfa rayonunun Saltaq kəndində "Ailə təsərrüfatlarının inkişaf etdirilməsində orta dağlıq ərazilərdə yer fıstığı bitkisinin əkilməsinin əhəmiyyəti və iqtisadi səmərəsi barədə" keçirilən seminarda ətraflı bəhs olunub.

Culfa Rayon İcra Hakimiyyətinin, Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfat Nazirliyinin və "Aqrolizinq" ASC-nin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə rayon icra hakimiyyətinin əməkdaşı Sərxan Hüseynov deyib ki, son illər bölgədə aqrar sektorun inkişafına, xüsusən də ailə təsərrüfatlarının yaradılmasına, yerli məhsul istehsalına böyük önəm verilir. Hazırda rayonda 50-yə yaxın ailə təsərrüfatı səmərəli şəkildə fəaliyyət göstərir. Onların istehsal etdikləri məhsulların satışı, bazar və yarmarkalara çıxarılması diqqətdə saxlanılır. Keçirilən tədbir də ailə təsərrüfatlarının inkişaf etdirilməsinə, orta dağlıq ərazilərdə yer fıstığı bitkisinin əkilib-becərilməsinə və məhsul götürülməsinə bir stimuldur.

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşlarından Xaliq Abbasov, Rasim Hacıyev və Səbuhi Həsənov çıxış edərək ailə təsərrüfatlarının müasir, kiçik ölçülü texnika və avadanlıqlarla təmin olunmasında aqroservis xidmətlərinin rolu, heyvandarlıq və arıçılıq təsərrüfatlarının inkişaf etdirilməsində paxlalı yem bitkilərinin, həmçinin orta dağlıq ərazilərdə yer fıstığı bitkisinin əkilməsinin əhəmiyyəti və iqtisadi səmərəsi barədə tədbir iştirakçılarını məlumatlandırıblar.

Nazirliyin Toxumçuluq və Bitkilərin Mühafizəsi idarəsinin müdiri Niyamət İsayev və Naxçıvan Aqrolizinq ASC-nin nümayəndəsi Həzi Həsənov məhsuldar toxum sortları ilə əkin keçirilməsinin və ailə təsərrüfatlarının inkişaf etdirilməsində lizinq xidmətinin əhəmiyyətindən bəhs ediblər. Tədbirin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb və yer fıstığı əkininin aqrotexnikası barədə maarifləndirici bukletlər paylanılıb.

Saltaq kənd sakini torpaq mülkiyyətçisi Camal Novruzov keçirilən tədbirdən sonra yer fıstığı bitkisinin əkilib-becərilməsinə qərar verdiyini nikbinliklə söyləyir. Deyir ki, dövlət qayğısı artırıldıqca biz kənd sakinlərinin də torpağa bağlılığı artır, müxtəlif çeşiddə məhsul istehsalına həvəs yaranılır. Elə buna görə də bu ilin ilkin yazında yer fıstığı bitkisinin toxumunu əldə edib, onun əkinini keçirəcəyəm. İqtisadi baxımdan sərfəli olan bu bitkinin əkilib-becərilməsinə digər kənd sakinləri də maraq göstərirlər. Sözsüz ki, bu bitkini Kənd Təsərrüfatı Nazirliyinin mütəxəssislərinin tövsiyələrinə əsasən əkib-becərəcəyik. Güman edirəm ki, yaxşı da məhsul götürüb ailə büdcəmizi zənginləşdirəcək, bazar və yarmarkalara insan orqanizmi üçün böyük faydaları olan yer fıstığı məhsulu çıxaracağıq.

**Məhəmməd Fərəcov,**
*Naxçıvan Dövlət Televiziyasının bölgə müxbiri*

# Bu vasitələrin bizi zəhərlədiyini bilirsinizmi?

**Bir çoxumuz sağlam həyat tərzində yaşadığımıza inanmaq istəyirik. Lakin ev əşyalarımızda neçə minlərlə kimyəvi maddələrin gizləndiyindən xəbərsiz oluruq. Mütəxəssislər sağlamlığımıza zərər verən və xərçəng xəstəliyinə səbəb olan ev məhsulları haqqında məlumat verib.**



### Deodorantlar

Alüminium tərkibli deodorantlar antiperspirant kimi ən çox istifadə edilən vasitələrdən biridir. Son illərdə bu vasitənin döş xərçənginə səbəb olduğuna dair şübhələr var. Qəti bir elmi nəticə olmasa da, ABŞ-dakı bütün istehsalçılar indi deodorantlar haqqında xəbərdarlıqlar edirlər.

### Kosmetik vasitələr

İnsanlar gündə ən azı 6-12 ədəd kosmetik vasitədən istifadə edirlər. Bu qədər çox istifadə etdiyimiz və dərimizlə təmasda olan məhsullar sağlamlığımıza zərər verməməlidir, lakin bu heç də belə deyil. İlk olaraq, sintetik tərkibli məhsullardan uzaq durmalıyıq. Mineral və ya təbii yağlardan hazırlanan məhsullara üstünlük verilməlidir. Təbii vasitələrə yönəlməliyik.

### Həşərat dərmanları

Alimlər pestisidlərin uşaqlarda sinir məhvinə səbəb olduğunu aşkar ediblər. Həşəratları uzaq tutmaq üçün dərmandan istifadə etmək əvəzinə evdəki əşyaları, evin hər yerini təmiz saxlamaq və qida vasitələrini qapalı qablara qoymaq məsləhət görülür.

### Teflon materiallı tavalar

Teflon tavalar həyatımızı asanlaşdırır, amma polietetrafloroetilen tərkibli bu tavalar yüksək temperaturda istifadə olunduqda zəhərli qaz yayır. Bu maddə müxtəlif problemlərə səbəb ola bilər. Paslanmayan polad tavalar daha sağlam seçim ola bilər.

### Strafor tərkibli plastik qablar

Plastik həmişə zərərli bir maddə kimi tanınıb. Strofoaminin rəsmi adı geniş polistirendir. Ancaq digər plastiklərdən fərqli olaraq o, xüsusilə qızdırılan zaman yeməyə və içkilərə daha asan qarışa bilər.

### Yumşaldıcılar

Paltaryuyan maşınlarda paltarlar bu vasitələrin tərkibindəki ammonium duzu ilə yumşaldılır. Yumşaldıcıların tərkibindəki bu maddə dəridə qıcıqlanmaya, baş ağrısına və tənəffüs problemlərinə səbəb ola bilər.

**Röya Rasimqızı**

## ALLAH RƏHMƏT ELƏSİN!

SOCAR-ın "Azəriqaz" İB-nin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın "Qaz İxrac" İdarəsinin Əməyin mühafizəsi üzrə rəis müavini Sarxan Babaşova, atası
**Mıxayəddin Babaşovun**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsinin rəisi Fuad Süleymanov, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın "Qaz İxrac" İdarəsinin Əməyin mühafizəsi üzrə rəis müavini Sarxan Babaşova, atası
**Mıxayəddin Babaşovun**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın Neft Kəmərləri İdarəsinin rəisi Vasif Əmirov, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadəyə, bacısı
**Pakizə Paşayevanın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın "Azneft" İB-nin Qaz Anbarlarının İstismarı İdarəsinin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın "Qaz İxrac" İdarəsinin Əməyin mühafizəsi üzrə rəis müavini Sarxan Babaşova, atası
**Mıxayəddin Babaşovun**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın "Azneft" İB-nin Dalma Qurğularının Təmiri və Kirayəsi üzrə Eksperimental İstehsalat Müəssisəsinin direktoru Nazim Qafarov və əmək kollektivi SOCAR-ın "Qaz İxrac" İdarəsinin Əməyin mühafizəsi üzrə rəis müavini Sarxan Babaşova, atası
**Mıxayəddin Babaşovun**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsinin rəisi Fuad Süleymanov, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadəyə, bacısı
**Pakizə Paşayevanın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Azərsu" ASC-nin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadəyə, bacısı
**Pakizə Paşayevanın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın Geofizika və Geologiya İdarəsinin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın "Qaz İxrac" İdarəsinin Əməyin mühafizəsi üzrə rəis müavini Sarxan Babaşova, atası
**Mıxayəddin Babaşovun**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın "Neftqaztikinti" Trestinin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın "Qaz İxrac" İdarəsinin Əməyin mühafizəsi üzrə rəis müavini Sarxan Babaşova, atası
**Mıxayəddin Babaşovun**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın "Qaz İxrac" İdarəsinin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadəyə, bacısı
**Pakizə Paşayevanın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın Marketinq və İqtisadi Əməliyyatlar İdarəsinin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadəyə, bacısı
**Pakizə Paşayevanın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın "Azneft" İB-nin H.Z.Tağıyev adına NQÇİ-nin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın "Qaz İxrac" İdarəsinin Əməyin mühafizəsi üzrə rəis müavini Sarxan Babaşova, atası
**Mıxayəddin Babaşovun**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Təsisçi:
SOCAR

Baş redaktor:
Vüqar RƏHİMZADƏ
Baş redaktorun I müavini:
İsmayıl HACIYEV

Bakı: Kapital Bankın 1 saylı Xətai filialı H/hesab
№AZ19AIIB380300194437 00306107
Kod № 200071
VÖEN: 2000157291

TELEFONLAR:
Qəbul otağı: 530-26-46, 430-87-97
Baş redaktorun I müavini: 530-26-36
FAX: 430-87-47
Mühasibatlıq: 430-87-27
e-mail: ikisahil@azdata.net

Ünvan:
AZ1012 Bakı, H.Zərdabi prospekti-88

Qəzet "İKİ SAHİL"in kompyuter mərkəzində yığılır və "AZƏRBAYCAN" nəşriyyatında ofset üsulu ilə çap olunur.
Çapa imzalanıb: 19.02.2019-cu il saat 01:00
Qiyməti: 40 qəpik, Sayı: 8179
İndeks: 0151, Sifariş: 622

Qəzetdə "AZƏRTAC", "OLAYLAR", "AzadInform", "TREND", SİA, InterFAX informasiya agentliklərinin məlumatlarından istifadə olunub.
Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.